DİQQƏT!

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 180 (6144) 13 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Mehriban Əliyeva: Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini...

Bax 8

## İlham Əliyev: "Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər!"

*Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib*

Bax 2



## İtaliyalı senator Ermənistanın Gəncəyə raket hücumunu pisləyən açıqlama yayıb



İtaliya parlamentində İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü, senator Stefano Luçidi Ermənistan hərbi qüvvələrinin atəşkəs rejimini pozaraq Gəncə şəhərini və oradakı mülki əhalini raket hücumuna məruz qoymasını pisləyən...

Bax 7

## Hikmət Hacıyev: "Ermənistanın Gəncəni ağır artilleriyadan atəşə tutmasını vandallıq və barbarlıq kimi qiymətləndiririk"



"Skad" raketi ortamənzilli ballistik raketdir və nüvə başlıqlarını da daşıya bilmək iqtidarındadır. Ümumiyyətlə, son dövrlərdə dünyadakı hərbi əməliyyatlara baxsaq görərik ki, 500 mindən artıq sakini olan şəhərə qarşı ballistik və böyük dağıdıcı gücə malik raketin atılması çox nadir hallardan biridir...

Bax 11



## Erməni faşizmi

iş başında: Xocalı 1992 - Gəncə 2020!





Bax 10

## "Bild": Atəşkəsin ilk günü qanlı qırğına çevrildi!

"Atəşkəsin ilk günü qanlı qırğına çevrildi". AZƏRTAC xəbər verir ki, Almaniyanın nüfuzlu "Bild" nəşrində bu gün dərc edilən bir materialın sərlövhəsi belədir (bax: https://www.bild.de/politik/ausland/politik-ausland/hunderte-tote-und-verletzte-erster-tag-der-waffenruhe-wird-zum-massaker-73358678.bild.html)...



Erster Tag der „Waffenruhe" wird zum Massaker

Bax 8

## Məhərrəm Əliyev: "Heç bir vətəndaşımızın qanı yerdə qalmayacaq"



Bax 12

## YAP 57 siyasi partiya və bir sıra beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

Bax 11

## Paşinyanın Gürcüstana qarşı açıq təxribatı: ermənilər gürcüləri təhqir edir!



Bax 14

# İlham Əliyev: “Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər!”

## *Prezident İlham Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



- “Haber Global” yayımına xoş gəldiniz. Son dərəcə önəmli bir qonağımız var. Bildiyiniz kimi, Azərbaycan Vətən müharibəsi aparır. Beləliklə, döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin sürətli, amma təmkinli irəliləyişi var. Bir atəşkəs prosesi, atəşkəsdən dərhal sonra Ermənistanın xüsusilə dünən törətdiyi hücumlar nəticəsində gərgin diplomatik proseslər, əməliyyat meydanında və masada hərəkətlilik. Təbii ki, bunları ən yaxından izləyən şəxs hazırda bu gərginlik arasında bizə vaxt ayıran Azərbaycan Prezidenti cənab İlham Əliyevdir. Xoş gördük, cənab Prezident.

***- Sağ olun.***

- İlk olaraq, dünənki hücumla, əməliyyat meydanında və masadakı son vəziyyətdən başlamaq istərdim. Bir tərəfdən, gərgin diplomatik fəaliyyət həyata keçirdiyinizi bilirik. İşinizin çox olduğu bir vaxtda bizə vaxt ayırdığınız üçün Sizə bir daha təşəkkür edirəm.

**“Bütün cəbhəboyu istiqamətlərdə Ermənistan məğlubiyyətə uğrayır və belə olan halda öz heyfini, öz acısını, öz məğlubiyyətini mülki şəxslərdən çıxmaq istəyir. Bu, onların xislətidir. Çünki Xocalı soyqırımını törədənlər məhz Gəncəyə o hücumu da törətmişlər”**

***Dünən bir çox yerdə bunun qarşılığını gördük, bir hücum, mülki əhaliyə qarşı bir hücum. Amma xüsusilə xarici mətbuatda tam əksinə bir yanaşma var, diasporun bir təbliğat müharibəsi var. Əvvəlcə, mövcud vəziyyətlə bağlı həqiqətlərdən danışa bilərsinizmi?***

- Əlbəttə, biz qara təbliğatla uzun illərdir ki, üzləşirik. Bunun bir neçə səbəbi var, onlardan biri də bəzi ölkələrdə erməni diaspor təşkilatlarının fəaliyyətidir. Onların fəaliyyətinin hədəfində Azərbaycan dayanır. Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yalanlar yaymaq və beləliklə, ölkəmizin imicinə zərbə vurmaq məqsədləri daim onların gündəliyində olan məsələlərdir.

Son döyüşlərlə əlaqədar da erməni diaspor təşkilatları və onların havadarları, dünya erməniliyi Azərbaycana qarşı mətbuat savaşına başlamışdır. Bunun nəticəsidir ki, bu gün dünya mətbuatında bir çox hallarda təhrif edilmiş məlumatlar yer alır. Ona görə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bizim böyük səylər göstərməyimiz gərəkdir. Bu baxımdan Türkiyənin mətbuat nümayəndələrinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki demək olar, hər gün gecə-gündüz Türkiyənin aparıcı televiziya kanalları, digər mətbu orqanları bu münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırır.

Atəşkəs rejimi tətbiq olunandan sonra Ermənistan demək olar ki, dərhal öz çirkin əməllərini davam etdirmişdir. Biz bir müddət ara vermişdik, çünki biz sözümüzə sadiqik. Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur.

Bildiyiniz kimi, ondan sonra gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilmişdir. Gəncə şəhəri bombardman edilmişdir. Şəhər “Toçka-U” raketləri ilə atəşə məruz qalmışdır və bunun nəticəsində mülki vətəndaşlar həlak olmuş və yaralanmışlar.

Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi.

***- İndi diqqət yetirdiyiniz bu amil çox əhəmiyyətlidir. Biz Türkiyənin terrorla mübarizəsində də bir çox istiqamətdə əməliyyat zonasında fəaliyyət göstərdik. Misal üçün, bizim şəhərlərimizə də PKK-dan bəzi raket atışları, top atışları olurdu. Bilirdik ki, bunu terror təşkilatı törədir. Dünən yayımlarımızda da mən ifadə etdim, insanlığa, vicdana, məntiqə sığmayan bir cavab. Daha əvvəl Siz xalqa müraciətinizdə də ifadə etmişdiniz, xüsusilə Rusiyaya edilən telefon zəngləri var, atəşkəs edək deyə. Atəşkəs əldə olundu, hansı məntiqlə və nə üçün bu hücum törədilir? Bu sualı necə cavablandırarsınız?***

- Burada, ilk növbədə, Ermənistanın terror mahiyyətini nəzərə almaq lazımdır. Çünki onlar döyüş meydanında məğlub olurlar, uduzurlar. Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır. Hər gün, demək olar ki, ya hansısa bir şəhər, ya kənd işğaldan azad edilir, yaxud da bu kəndlərin ərazisi nəzarət altına alınır. Bu gün deyə bilərəm ki, bir neçə yaşayış məntəqəsi indi bizim tam nəzarətimiz altındadır. Sadəcə olaraq, o yaşayış məntəqələrinə biz hələ girməmişik, çünki hərbi nöqteyi-nəzərdən buna ehtiyac yoxdur. Ancaq müəyyən müddətdən sonra biz növbəti elanlar edəcəyik. Ona görə bütün cəbhəboyu istiqamətlərdə Ermənistan məğlubiyyətə uğrayır və belə olan halda öz heyfini, öz acısını, öz məğlubiyyətini mülki şəxslərdən çıxmaq istəyir. Bu, onların xislətidir. Çünki Xocalı soyqırımını törədənlər məhz Gəncəyə o hücumu da törətmişlər.

Gəncəyə bu hücumun səbəbkarı Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Bizdə olan məlumata görə, bu qərar şəxsən Paşinyan tərəfindən verilmişdir. Bizdə dəqiq məlumat var ki, Paşinyan hazırda çox ağır psixoloji sarsıntılar keçirir. Onun mənəvi-psixoloji durumu çox gərgindir və qeyri-adekvat qərarlar verir. Məsələn, Hadrutu yenə işğal altına salmaq üçün onlar bir neçə dəfə cəhdlər göstərdilər. Mənə bu səhər verilən məlumata görə, bu gecə Ermənistandan gəlmiş özəl komando qruplarından ibarət olan böyük bir qrup Hadrutu yenidən işğal etməyə çalışıb. Halbuki strateji nöqteyi-nəzərdən bunun Ermənistan üçün o qədər də böyük önəmi yoxdur. Sadəcə olaraq, gedib orada şəlfi çəkdirmək, yaxud da ki, öz əhalisinə bir hesabat vermək üçün. Azərbaycan Ordusu o qrupu zərərsizləşdirdi və orada bu gecə Ermənistanın verdiyi qurbanlar sırf Paşinyanın məsuliyyətsiz və yırtıcı siyasətinin qurbanlarıdır.

Bu, onların taktikasıdır. Çünki onlar öyrəşiblər ki, dünya meydanında onlara daim dəstək veriləcək. Dünya erməniliyi, onların havadarları, islamofob dairələr, təəssüf ki, dünyada kifayət qədər güclü mövqelərə malikdirlər. Onlar hər zaman Ermənistanı və onların bizə qarşı təcavüzkar siyasətini dəstəkləyirdilər, onları müdafiə edirdilər. Azərbaycan haqqında olmazın yalanlar yayırdılar, azərbaycanlıları təcavüzkar kimi göstərmək istəyirdilər. Ancaq bugünkü dünyada, internet dövründə bunu etmək onlar üçün artıq çox çətindir. Çünki artıq qeyri-ənənəvi mətbuat vasitələri var, internet var və məlumatın çatdırılması o qədər də çətin məsələ deyil. Ona görə bu gün onlar informasiya mübarizəsində də əvvəlki mövqelərə sahib deyillər. Biz isə haqq yolundayıq. Həm beynəlxalq hüquq baxımından, həm tarixi ədalət baxımından biz haqlıyıq. Biz öz torpağımızdayıq, öz torpağımızda vuruşuruq.

***Ardı Səh. 3***

# İlham Əliyev: "Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər!"

## *Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib*

Əvvəli Səh. 2

Erməni əsgəri bizim torpaqlarımızdan çıxarsa, bu münaqişəyə də son qoyulacaq.

***- Beynəlxalq ictimaiyyət dediniz, gözlədiyiniz, xüsusilə bu hücumdan sonra Qərbdə elə də çox səs eşidilmədi. Gözlədiyiniz etirazı aldınızmı? Dünən cənab Hacıyevin attaşelərlə keçirdiyi toplantıda da şahid olduğumuz bir məqam var. Üç dəfə dedi ki, bir sual verin, açıqlayaq, həqiqətləri sizə izah edim. Cavab gəlmədi.***

- Biz çox da gözləmirdik, buna heç ehtiyac da yoxdur. Çünki bu uzun illər ərzində biz gördük ki, həqiqəti eşitmək istəmirlər, yaxud da ki, həqiqəti pərdələmək istəyirlər, məlumatları, gerçək faktları təhrif edirlər. Bunun da səbəbləri kifayət qədər çoxşaxəlidir. Ona görə, bizim əsas işimiz ondan ibarət idi ki, bu məsələni həll edək, tarixi ədaləti, öz ərazi bütövlüyümüzü bərpa edək. Bunu etmək üçün bizdə kifayət qədər güc var.

> **"Gəncəyə bu hücumun səbəbkarı Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Bizdə olan məlumata görə, bu qərar şəxsən Paşinyan tərəfindən verilmişdir. Bizdə dəqiq məlumat var ki, Paşinyan hazırda çox ağır psixoloji sarsıntılar keçirir. Onun mənəvi-psixoloji durumu çox gərgindir və qeyri-adekvat qərarlar verir"**

Əlbəttə ki, ilk günlərdən, ilk saatlardan qardaş Türkiyədən göstərilən dəstək, mənim qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğandan səslənən dəqiq açıqlamalar, eyni zamanda, digər yüksəksəviyyəli şəxslərin açıqlamaları həm Azərbaycana mənəvi dəstək verdi, eyni zamanda, bütün dünyaya göstərdi ki, Türkiyə Azərbaycanın yanındadır. Əgər belə olmasaydı, ola bilərdi ki, artıq Ermənistan-Azərbaycan arasında olan bu münaqişə daha da geniş coğrafiyaya sıza bilərdi.

***- Dayanıqlı bir atəşkəs gözləyirsinizmi? Daim pozulur, Moskvadakı 11 saat yarımlıq toplantıdan sonra buna nail olundu. Dünən biz jurnalistlər burada şahid olduq ki, Bakı böyük səbir göstərir.***

- Bəli, biz səbir göstəririk. Əlbəttə ki, Gəncə belə vəhşi atəşə məruz qaldıqda bu, hər bir azərbaycanlını hiddətləndirir və adekvat cavab tələb olunur. Amma biz cavabı döyüş meydanında veririk. Dünən itirilmiş qurbanlarımızın qisasını biz döyüş meydanında aldıq. Bizim münasibətimiz belədir: biz heç vaxt mülki şəxslərlə müharibə aparmamışıq, bu gün də aparmırıq. Bu, Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biridir. Ona görə dayanıqlı atəşkəsin təmin edilməsi üçün ilk növbədə, Ermənistan anlamalıdır ki, artıq işğaldan azad edilmiş torpaqları onlar görməyəcəklər, onlar oraya qayıtmayacaqlar. Bu, onlar üçün tamamilə qeyri-mümkündür. Kim nə deyirsə-desin, kim onları necə dəstəkləyirsə dəstəkləsin, bu, olmayacaq. Biz bu torpaqlara gəldik, bu, bizim dədə-baba torpaqlarımızdır. Bizi oradan heç bir qüvvə çıxara bilməz. Bunu nə qədər tez anlasalar, onlar üçün o qədər də yaxşı olacaq. Çünki dayanıqlı atəşkəs üçün hər iki tərəfin buna sadiq olması lazımdır. Biz buna sadiqik. Biz günorta saat 12-dən qüvvəyə minmiş atəşkəsə riayət etmişdik, amma göründə ki, Ermənistan bunu pozur, təbii ki, biz buna səssiz qala bilməzdik. Biz də özümüzü müdafiə etməliyik və beləliklə, demək olar ki, atəşkəs qüvvəyə mindi, amma real həyatda baş vermədi.

***- Çəkilməklə bağlı siqnal alırsınızmı, ən azından həmin nöqtədə? Torpaqlarımızdan çəkilməklə bağlı.***

- Yox, biz belə bir siqnal almırıq və heç kim də bizə belə bir siqnal verə bilməz. Bu, beynəlxalq hüquqa və tarixi ədalətə ziddir. Belə bir siqnal olmamışdır. Siqnallar var ki, dayandırın. Siqnallar var ki, daha irəli getməyin. Siqnallar var ki, atəşkəs təmin edilsin. Biz də deyirik ki, yaxşı, atəşkəs təmin edilsin, ancaq bununla bərabər gərək məsələ sülh yolu ilə həll edilsin.

Moskvada qəbul edilmiş açıqlama, hesab edirəm ki, bizim maraqlarımıza tam cavab verir. Çünki, ilk növbədə, orada göstərilir ki, həlak olanların cəsədlərinin, əsirlərin humanitar əsaslarla dəyişdirilməsi nəzərdə tutulur. Biz bunu ilk gündən istəyirdik. Ancaq Ermənistan buna getmirdi. Bundan başqa çox önəmli siyasi məqamlar var. Onlardan biri danışıqların, müzakirələrin bərpa edilməsi, baza prinsipləri əsasında substantiv danışıqların davam etdirilməsidir. Baza prinsipləri isə bizim maraqlarımıza cavab verir. Çünki orada işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması nəzərdə tutulur. Orada göstərilir ki, birinci mərhələdə beş rayondan, ikinci mərhələdə daha iki rayondan erməni silahlı qüvvələri çıxarılır. Ondan sonra təbii ki, bütün məcburi köçkünlər əvvəlki dövrdə yaşadıqları bölgələrə qayıdırlar. Bu da o deməkdir ki, bizim məcburi köçkünlərimiz Şuşaya da, Xankəndiyə də qayıdacaqlar və ondan sonra, yəni, bu məsələnin siyasi həlli təmin edilə bilər.

Digər məsələ, - Ermənistan buna hər zaman o qədər yaxşı baxmırdı, - odur ki, müzakirələrin formatı dəyişməz olaraq qalır. Ermənistan rəhbərliyi və baş nazir Paşinyan hər zaman deyirdi ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz isə buna etiraz edirdik. Oraya belə bir bəndin salınması yenə də bizim maraqlarımıza cavab verir.

Ona görə artıq hərbi mərhələdən diplomatik siyasi mərhələyə keçid üçün bütün imkanlar, bütün zəmin var. Qaldı ki, Ermənistan bu atəşkəsə əməl etsin. Ümid edirəm ki, Azərbaycanın müzəffər Ordusunun dünən və bu gecə yeni uğurlu əməliyyatları onları buna məcbur edəcək.

***- Siz sentyabrın 27-dən bəri, bu Vətən müharibəsi başladığı andan etibarən yeni bir formatdan, Türkiyənin öz mövqeyini daha fəal qoymasından, bu məsələnin Rusiya və Türkiyə ilə birlikdə həll oluna biləcəyindən bəhs edirsiniz. Amma Türkiyə Lavrovun açıqlamasında yox idi. Sanki bundan sonra ATƏT-in Minsk qrupunda müzakirələrin yenə davam edəcəyinə yönəlik bir açıqlama etdi. Türkiyə necə, nə şəkildə, nə vaxt masada olacaq? Ya da bu barədə danışıldımı?***

- Əlbəttə ki, bu, bizim mövqeyimizdir. Mən bunu bir neçə dəfə açıqlamışam. Bir daha demək istəyirəm ki, mütləq Türkiyə bu məsələnin siyasi yollarla həll olunmasında fəal rol oynamalıdır. Mən onu da bilirəm, Türkiyənin bəzi mətbuat orqanlarında yazılır ki, nə üçün Türkiyə Moskvada olmamışdı. Təbii ki, bu, indiki mərhələdə nəzərdə tutulmurdu. Heç Türkiyə qarşısında da belə bir vəzifə durmurdu. Bu, danışıqlar prosesi deyil. Bu, sadəcə olaraq, humanitar əsaslarla tətbiq olunan atəşkəsdir. Yəni, bu, danışıqların keçirilməsi üçün təşkil edilmiş tədbir deyildi. Danışıqlar bu günə qədər Minsk qrupu çərçivəsində aparılır. Ancaq bu danışıqların səmərəsi və heç bir nəticəsi yoxdur. Otuz ilə yaxındır ki, bir santimetr torpaq bizə müzakirə yolu ilə qaytarılmadı. Ona görə mən də tam haqlı olaraq dedim, bir halda ki, Minsk qrupu 1992-ci ildə formalaşdı və o zaman hansı əsaslarla formalaşdı, bu haqda bizdə heç bir məlumat yoxdur. Əgər Minsk qrupunun tərkibinə baxsanız görərsiniz ki, orada bu bölgədən uzaqlarda yerləşən ölkələr, bu bölgə ilə heç bir əlaqəsi olmayan ölkələr, münaqişə ilə heç vaxt maraqlanmayan ölkələr də var. Onların orada mövcudluğu formal xarakter daşıyır. Yaxşı, biz əgər bu münaqişənin həll olunmasını istəyiriksə, - amma biz istəyirik, - elə ölkələr olmalıdır ki, onların gücü də olsun, təsiri də olsun və bu tərkib birtərəfli olmasın. İndi Minsk qrupunun həmsədrlərinin ölkələrində erməni diasporlarının fəaliyyətinə diqqət yetirin. Hər üç ölkədə erməni diaspor təşkilatları böyük siyasi imkanlara malikdir. O siyasi imkanlar nəticəsində onlar o ölkələrin vəzifəli şəxslərinə təsir edirlər. Yəni, bu, nə qədər ədalətlidir? Nə üçün Türkiyə də həmsədr olmasın, onsuz da Minsk qrupunun üzvüdür. Ona görə bizim siyasətimizdə tam məntiq və nəticəyə hesablanmış yanaşma var.

Geosiyasi reallıqlar dəyişib. 1992-ci illə bugünkü vəziyyəti müqayisə etmək olmaz. Bu gün Türkiyə nəinki bölgədə, dünya miqyasında güc mərkəzidir. Bunu Qərbdə bir çoxları qəbul etmək istəmirlər, bu, onları qıcıqlandırır. Onlar öyrəşiblər, təəssüf ki, keçən əsrdə bəzi hallarda onların sözü Türkiyə siyasətində çox böyük dəyər təşkil edirdi. Ancaq bu gün Türkiyə tam müstəqil siyasət aparır və dünya miqyasında gücə çevrilibdir. Hansı məsələ bizim bölgəmizdə Türkiyəsiz həll olundu? Baxın, Suriyada, Liviyada, Orta Şərqdə, bizim bölgədə Türkiyə söz sahibidir və bu, reallıqdır. Onunla hesablaşmaq lazımdır.

İndi müzakirələr nə zaman başlayacaq, mən bunu deyə bilmərəm. Çünki Ermənistan bir halda ki, bu atəşkəsi pozur, inanmıram danışıqlarda da səmimi olsun. Ancaq istənilən halda de-yure, ya da de-fakto Türkiyə mütləq bu problemin həllində olmalıdır və onsuz da var. Çünki bu gün sirr deyil ki, biz Türkiyə ilə müntəzəm olaraq məsləhətləşmələr aparırıq. Bu proseslər başlayandan - 27 iyuldan bu günə qədər biz daim əlaqədəyik. Türkiyənin yüksək səviyyəli vəzifəliləri bir çox ölkələrin dövlət və hökumət başçıları ilə sıx təmasdadırlar. Ona görə bu, artıq reallıqdır. Sadəcə olaraq, biz de-fakto reallığı de-yure reallığa çevirməliyik.

***İndi "Nə üçün o həmsədrlik sistemində Türkiyə olmasın, olmalıdır" ifadəsini işlətdiniz. Bunu bir qədər də aydınlaşdırmaq üçün soruşacağam, amma Sizə istinad edərək. Ötən gün xalqa müraciətinizdə eynilə bu ifadələri işlətdiniz - biz artıq status-kvonu dəyişdirdik, təmas xətti deyə bir şey yoxdur, təmas xəttini yardıq. Yeni müzakirədə həm Türkiyənin iştirakı, həm də bu dediyiniz sözlər barədə bir qədər ətraflı bəhs etsək, tam olaraq nəyi nəzərdə tutursunuz? Bundan sonra Bakı tərəfindən necə bir status-kvo qurulacaq?***

-Bilirsiniz, biz status-kvo ilə əlaqədar uzun illər çox böyük səy göstərdik ki, həmsədrlərdən bununla bağlı bir açıqlama gəlsin. Nəhayət təqribən 7-8 il bundan əvvəl Amerika, Rusiya və Fransa prezidentləri səviyyəsində bir neçə dəfə belə bir açıqlama verildi - status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Biz də bunu alqışladıq. Mən də bir neçə dəfə bununla bağlı açıqlama verdim ki, bu, çox müsbət bir yanaşmadır. Yəni, bu, nə deməkdir, o deməkdir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan çıxmalıdır. Status-kvonun dəyişdirilməsini Ermənistan etməlidir. Çünki biz Ermənistan torpaqlarını işğal etməmişik. Biz status-kvonu necə dəyişdirə bilərik? Bu Ermənistan tərəfinə, bir mesaj, bir siqnal idi. Ancaq təəssüf ki, bu açıqlama və açıqlamalar, - bir neçə dəfə belə açıqlamalar verildi, - havada qaldı. Ondan sonra biz nə eşitməyə başladıq? Son dönəmdə artıq həmin həmsədrlər bu ifadədən geriyə addım atdılar. İndi nə deyirlər? İndi deyirlər ki, status-kvo dayanıqlı deyil. Amma bu, böyük bir fərqdir. Status-kvo dəyişməlidir, yəni ki, Ermənistan, sən torpaqlardan çıxmalısan. Status-kvo dayanıqlı deyil, yəni sabit deyil o deməkdir ki, sadəcə olaraq, onlar bunu fakt kimi göstərirlər. Ona görə belə olan halda, status-kvonu Azərbaycan özü dəyişdirdi, döyüş meydanında dəyişdirdi. Artıq status-kvo yoxdur. Artıq Ağdərə, Füzuli, Cəbrayıl, Hadrut rayonlarının yaşayış məntəqələri və kəndlər azad edildi. Hansı status-kvodan söhbət gedə bilər? Söhbət gedə bilməz. Təmas xətti? Təmas xətti yoxdur. Aydın məsələdir ki, mövcud olan təmas xətti çox böyük hərbi biliklər əsasında yaradılmışdır. Ermənistanın o zaman heç bir hərbi bilikləri yox idi. Bunu biz açıq etiraf etməliyik. Yəni, Ermənistanın nüfuzunun az olması onlar üçün çox ciddi bir problem yaradır. Onlar üçün təmas xətti çox qısa olmalı idi, düz olmalı idi. Onu da etdilər. Onların buna ağlı çatmazdı. Onlara məsləhət verənlər bunu etdilər. Əgər o əvvəlki təmas xəttinə baxsanız, bu üfüqi-şaquli formadadır. Belə, düz. Yəni, onu müdafiə etmək çox asandır. Onların mövqeləri əsasən təpələrdə idi. Onlara müdaxilə etmək, yəni, istehkamları yarmaq çox çətin bir iş idi. İndi bu təmas xətti yoxdur. Biz onu bir neçə yerdən - şimaldan, cənubdan, ondan sonra şərqdən yardıq. Artıq hansı təmas xəttindən söhbət gedə bilər? Yoxdur! Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir. Hər gün biz yeni mövqeləri azad edirik.

Ardı Səh. 4

# İlham Əliyev: "Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər!"

*Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib*

Əvvəli Səh. 3

O mövqelər şərt deyil ki, kənd olsun, yaxud da ki, şəhər olsun. Təpə olsun, dağ olsun - o, kənddən, şəhərdən daha önəmlidir. Şəhərlərə biz onsuz da qayıdacağıq. Bizim üçün əsas məsələ strateji yüksəklikləri almaqdır. İndi Hadrutun bütün ətrafı bizim nəzarətimizdədir. Şəhərdə də biz varıq. Amma şəhərə girək-girməyək o başqa məsələdir. Bizim qarşımızda indi belə bir siyasi vəzifə yoxdur ki, mütləq bu gün oranı elan edək, sabah oranı elan edək. Yoxdur. Bəzi hallarda biz kəndləri, şəhərləri azad edirik, bir gün, iki son sonra açıqlama veririk. Bunun da taktikası var.

**"Ermənistan anlamalıdır ki, artıq işğaldan azad edilmiş torpaqları onlar görməyəcəklər, onlar oraya qayıtmayacaqlar. Bu, onlar üçün tamamilə qeyri-mümkündür. Kim nə deyirsə-desin, kim onları necə dəstəkləyirsə dəstəkləsin, bu, olmayacaq"**

Bir daha deyirəm, status-kvo yoxdur, təmas xətti yoxdur. Ermənilərin öz orduları haqqında uzun illər uydurduğu yenilməz ordu əfsanəsi yoxdur. Biz göstərdik kim kimdir. Ona görə bu reallıqlarla gərək həm Ermənistan hesablaşsın, onların havadarları hesablaşsın, bütün dünya hesablaşsın. Bizə dur deyənlər bilməlidirlər ki, yaxşı, biz dura bilərik, biz də istəmirik ki, qan tökülsün. Amma ondan sonra gərək siyasi proses başlasın. Siyasi proses başlamasa, biz durmayacağıq. Mən demişəm, biz sona qədər gedəcəyik, sona qədər. Amma necə? Hərbi yolla, yaxud da ki, siyasi yolla, o, başqa məsələdir. Biz istəyirik ki, hərbi mərhələ dursun, qan tökülməsin, şəhidlər olmasın və sülh yolu ilə öz torpaqlarımızı azad edək.

***- İşin siyasi və hərbi tərəfi bir tərəfə. Bu gün biz, daha doğrusu, Bakıya gəldiyimiz andan etibarən oranı tərk etmək məcburiyyətində qalmış insanlarla görüşdük, aralarında xocalılılar, cəbrayıllılar var idi. Azərbaycan dövlətinin, Sizin köməyinizlə tikilən qəsəbələrə getdik. Hər kəsin üzündə bu ifadə var idi: Sizə, dövlətə böyük minnətdarlıq hissi duyurlar. "Biz burada heç bir şeyə ehtiyacımız olmadan yaşayırıq, lakin biz öz torpaqlarımıza dönmək istəyirik" deyirlər. Xüsusilə cəbrayıllılar, "İşğaldan azad edilən torpaqlarda nə edəcəksiniz?" sualına, "Təki bir damımız olsun, kifayətdir" deyirlər. Bəs, Siz nə edəcəksiniz o insanlar üçün? O torpaqlarda yeni inşaat işləri aparılacaq?***

- Biz orada nəinki damlar, biz orada şəhərlər quracağıq, biz oraya həyatı qaytaracağıq. Biz bütün dağılmış yerləri bərpa edəcəyik. Ora indi bizim ordumuzun nəzarətindədir. Artıq işğaldan azad edilmiş torpaqların bəzilərinə bizim mətbuat nümayəndələri də gedirlər. Bəzilərində isə hərbçilər özləri videoya çəkirlər, görürlər ki, orada bir dənə də salamat bina yoxdur. Yəni, bu, faşistlərin əməlləridir. Dünya bunu görməlidir və görəcək. Görün, indi Ağdam, Füzuli nə gündədir?! Bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. Biz Cocuq Mərcanlını təqribən 8 aya qurduq. O kənd ki, biz 2016-cı ildə işğaldan azad etdik, 6-7-8 aya artıq oranı biz inşa etdik və indi orada insanlar yaşayırlar, qazı da, suyu da, elektriki də, məscidi də, xəstəxanası da, məktəbi də, evlər də var, hər şey var. Bir də ki, kənd təsərrüfatı üçün onlara avadanlıq vermişik və indi o kənd dirçəlib. Bütün o torpaqları biz cənnətə çevirməliyik. Onsuz da oranın mənzərəsi cənnətdir və uzun illər erməni tapdağının altında olmasına baxmayaraq, o torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar.

Bizim məcburi köçkünlərimiz bilirlər ki, mənim üçün, Prezident üçün onların problemi bir nömrəli problemdir. Siz də bilirsiniz ki, biz onlar üçün nə qədər böyük yardımlar edirik. Bu il biz 7 min ailəyə yeni mənzillər veririk. Təqribən 35 min insan bir il ərzində dövlət tərəfindən pulsuz mənzil alır. Hər ay dövlət onların hər birinə müavinət verir. Ona görə, təbii ki, onlar dövlətin qayğısından razıdırlar. Mənim onlarla keçirdiyim görüşlərdə onlar hər zaman təşəkkürlərini bildirirlər və deyirlər ki, burada hər şey yaxşıdır, biz bu yeni evlərdə yaşayırıq, belə şəraiti görməmişik, amma bizi ora qaytarın, biz oraya getmək istəyirik və gedəcəklər.

Ona görə biz indi artıq o bölgələrin inkişaf planları üzərində işləməliyik, müvafiq göstərişlər artıq verilibdir. Planlama hazırlanacaq ki, o bölgələrə Azərbaycan əhalisi qayıtsın və maksimum qısa müddət ərzində artıq onlar oraya yerləşsinlər.

***- Cənab Prezident, bu qədər sıx qrafikinizin, diplomatik gərginliyin arasında bizə vaxt ayırdığınız üçün Sizə çox təşəkkür edirik.***

## Türkiyə mediası Ermənistanın terrorçu mahiyyətini bütün dünyaya yaymaqda davam edir

***Türkiyənin kütləvi informasiya vasitələri Prezident İlham Əliyev oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına müsahibəsində səsləndirdiyi fikirlərinə, həmçinin Ermənistan ordusunun Gəncə şəhərində çoxmərtəbəli yaşayış binasının ballistik raketlə vurulmasına, eləcə də cəbhədəki vəziyyətə dair məlumatları geniş şəkildə yaymaqda davam edir. Anadolu agentliyi və TRT-nin bütün qurumları Azərbaycanla bağlı mövzunu əsas məsələ kimi gündəmdə saxlayır.***







AZƏRTAC xəbər verir ki, qardaş ölkə KİV-ləri döyüş meydanında aldığı məğlubiyyətlə barışmayan düşmən ordusunun azğınlıq edərək günahsız insanları hədəfə aldığı diqqətə çatdırılır. Telekanallar Ermənistanın Azərbaycana qarşı törətdiyi davamlı təxribatlarla bağlı xüsusi reportajları yayımlayır, münaqişə ilə bağlı ekspert rəyləri təqdim edir, cəbhə bölgəsindən birbaşa xəbərlər verir, Türkiyədə keçirilən dəstək aksiyaları geniş işıqlandırılır.




Məlumatlarla Anadolu, İHA, DHA agentlikləri, "TRT Haber", "Haber Türk", TGRT, "A Haber", "Haber Global", "Büngü TV", "CNN türk" telekanallarının, habelə "Akşam", "Milliyət", "Sabah", "Sözçü", "Yeni çağ" və sair nüfuzlu qəzetlərin, həmçinin yerli bölgə saytlarında tanış olmaq mümkündür.




## Rusiyanın "Kommersant" qəzetində Ermənistan ordusunun Gəncəni raket atəşinə tutması ilə bağlı məqalə dərc edilib

***Rusiyanın "Kommersant" qəzetinin müxbiri Kiril Krivoşeyevin Qarabağda münaqişə zonasından və Gəncədən hazırladığı məqalə "Atəşkəsə "Toçka" qoyulur. Azərbaycana yenidən raketlər uçur" sərlövhəsi ilə dərc edilib.***

AZƏRTAC xəbər verir ki, müxbir əvvəlcə Tərtər rayonundan, burada Ermənistan ordusunun atdığı mərmilər nəticəsində dağılmış evlərin, yerli əhalinin zirzəmilərdə daldalanmasının şahidi olduğunu yazır. Müəllif bildirir ki, Bakıda Rusiya jurnalistləri üçün təşkil edilmiş brifinqdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Fuad Axundov, deputat Nizami Səfərov və "Bakinski raboçi" qəzetinin baş redaktoru Rəhman Hacıyev onları münaqişə zonasında baş verənlər barədə məlumatlandırıblar.

Oktyabrın 11-də səhər Ermənistan ordusunun Gəncəyə raket atmasını eşidərək şəhərə gələn rusiyalı müxbir raketin yaşayış binasına düşməsi nəticəsində dinc sakinlər arasında ölənlərin və yaralananların olduğunu, su anbarı və su elektrik stansiyasının yerləşdiyi Mingəçevirin də atəşə tutulduğunu yazır. Gəncədə yaşayış evinin tamamilə dağıldığı, ətraf tikililərə də ciddi ziyan dəydiyi bildirilir.

Məqalədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin brifinqdə Ermənistan tərəfinin atəşkəsi pozması, işğaldan azad edilmiş Cəbrayıl və Hadrutu geri qaytarmaq cəhdləri, Ağdamı atəşə tutması barədə fikirləri yer alıb.

# “Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi”

## *Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib*

***Xəbər verdiyimiz kimi, oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. Oktyabrın 11-də həmin televiziya kanalında dövlətimizin başçısının müsahibəsi yayımlanıb. AZƏRTAC müsahibəni təqdim edir.***



***-Əvvələn, çox sağ olun ki, bizimlə müsahibəyə razılıq vermisiniz. Söhbətə başlamazdan əvvəl mən RBK-nın prinsipləri barədə danışmaq istərdim. Bir neçə gün bundan əvvəl Ermənistanın baş naziri ilə böyük müsahibə gedib, indi isə burada - Azərbaycanda, Bakıdayıq və Azərbaycan Prezidenti İlham Əliyev ilə söhbət edəcəyik. Daha bir remarka. Mən ilk sualı verməzdən əvvəl hər iki tərəfdən həlak olanların bütün doğmalarına başsağlığı vermək istəyirəm. Müharibənin heç kimə lazım olmaması və müharibəsiz də ötüşməyin mümkünlüyü barədə çox eşitmişəm. Lakin bundan sonra ən çətini və yəqin ki, ən maraqlısı başlanır. Danışıqlar başa çatıb. Siz Moskvada baş verənləri necə qiymətləndirirsiniz? Bütün bunların nə demək olduğunu anlamaq bizim üçün çox vacibdir.***

-Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm. Ona görə ki, danışıqların yekunları ilə bağlı yayılmış bəyanatda humanitar mülahizələrə əsasən atəşkəs rejiminin elan edilməsi bildirilir. Prinsipial əhəmiyyətli bir məqam da odur ki, bu, Azərbaycanın mövqeyi idi. Mən şadam ki, həmin mövqe bu sənəddə öz əksini tapıb. Ermənistan ilə Azərbaycan arasında substantiv danışıqlar başlanır, həmçinin danışıqların formatının dəyişməz qalması təsdiqlənir. Ermənistanın yeni hakimiyyəti bu iki mövqeyi pozmağa çalışırdı. Ona görə ki, heç kəs üçün sirr deyil, İrəvandan səslənən bəyanatlar mahiyyət etibarilə uzun illər ərzində işlənib hazırlanmış danışıqlar prosesini, o cümlədən baza prinsiplərini, danışıqların formatını pozmağa yönəlmişdi. Buna görə prinsipial əhəmiyyətli məqam odur ki, Ermənistan tərəfi anlamağa məcbur oldu ki, baza prinsipləri nizamlama üçün əsasdır, həmin prinsiplərdə isə münaqişənin necə nizamlanmalı, Azərbaycanın işğal edilmiş ərazilərinin hansı ardıcıllıqla qaytarılmalı olduğu dəqiq göstərilib. İkincisi, danışıqların formatı dəyişməz qalır. Bu, o deməkdir ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılırdı, aparılır və aparılacaq. Ermənistan rəhbərliyinin bu məsuliyyəti Dağlıq Qarabağda mövcud olan oyuncaq rejimin üzərinə qoymaq üçün göstərdiyi bütün cəhdlər uğursuz oldu. Beləliklə, əminəm ki, bundan sonra Paşinyandan “Qarabağ Ermənistandır” sözlərini bir daha eşitməyəcəyik. Həmçinin onun belə bəyanatlarını eşitməyəcəyik ki, Azərbaycan danışıqları qondarma “Dağlıq Qarabağ respublikası”nın qondarma “rəhbərliyi” ilə aparmalıdır. Əgər o, belə bəyanatlar verərsə, bu, o demək olacaq ki, o, həm vasitəçilərə, həm də Moskvada bu mətni razılaşdırmış öz nümayəndə heyətinə hörmətsizlik edib və mahiyyət etibarilə, o, danışıqlar prosesini yenidən pozur. Bu dəfə həmin bəyanatlar nəyə gətirib çıxardı? Zənnimcə, bunu hamı aşkar görür, lakin düşünmürəm ki, o, ikinci dəfə həmin səhvi təkrarlayar.

**“Əminəm ki, bundan sonra Paşinyandan “Qarabağ Ermənistandır” sözlərini bir daha eşitməyəcəyik. Həmçinin onun belə bəyanatlarını eşitməyəcəyik ki, Azərbaycan danışıqları qondarma “Dağlıq Qarabağ respublikası”nın qondarma “rəhbərliyi” ilə aparmalıdır”**

***-Atəşkəs nə qədər davam edəcək? Bu atəşkəsin amanabəndliyini Siz necə qiymətləndirirsiniz? O, nədən asılı olacaq?***

-İndiki eskalasiyaya qədər atəşkəs uzun müddət, onilliklər boyu davam etdi. Təmas xəttində müəyyən toqquşmalar olub, bu il iyul ayında dövlət sərhədində erməni tərəfinin təxribatları olub. Lakin son 30 ilə yaxın müddətdə bu qədər genişmiqyaslı əməliyyatlar olmayıb. Buna görə hər şey erməni tərəfindən asılı olacaq. Əvvələn, o, atəşkəsə riayət edəcəkmi? Ona görə ki, bu gün səhər və dünən, yəni, bu gecə və səhər mənim aldığım məlumata görə, erməni qüvvələri bir neçə istiqamətdə genişmiqyaslı əks-hücum cəhdləri göstərib, Hadrutu geri almağa, Cəbrayıl rayonunda, şimal istiqamətində bizim azad etdiyimiz əraziləri geri almağa cəhd göstərib. Yəni, onlar Moskvada tərəflərin razılığa gələ biləcəyini başa düşdüklərindən itirdiklərini və onlara məxsus olmayanları maksimum həcmdə özlərinə qaytarmağa çalışıblar. Buna görə də atəşkəs rejiminin möhkəmliyinin əsas amili bu olacaq ki, Ermənistan bu ərazilərin bizdə olması ilə, onun həmin əraziləri bir daha heç vaxt görməyəcəyi ilə barışmalı və bunu hərbi yolla geri almağa heç bir cəhd göstərməməlidir.

Bundan heç də az əhəmiyyətli olmayan ikinci amil indicə haqqında danışdığım məsələdir. Biz danışıqlar masası arxasında Ermənistan tərəfindən konstruktiv yanaşma görməliyik, yəqin etməliyik ki, onlar danışıqlar prosesini imitasiya etmək cəhdlərindən əl çəkiblər, təhrikçi əməllərdən, bəyanatlardan çəkiniblər və nizamlama yolunun tapılması məqsədinə sadiqdirlər. Son bir il ərzində erməni tərəfindən gördüklərimiz məhz danışıqlar prosesini pozmağa və məsuliyyəti Azərbaycanın üzərinə qoymağa yönəlmişdi. Buna görə də baxarıq, biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Mən həmişə demişəm ki, bizim imzamız da sözümüz kimi əhəmiyyətlidir. Lakin atəşkəs birtərəfli proses deyil və biz baxarıq, görək erməni tərəfi özünü necə aparır.

***-Danışıqlara başlamaq üçün Azərbaycanın irəli sürdüyü şərtlərdən biri konkretlik idi. Deyilirdi ki, erməni tərəfi qoşunların çıxarılması üçün konkret plan təqdim etməlidir. Bu, Ermənistanın razılaşıb-razılaşmamasından asılı olmayaraq danışıqların indi başlanması deməkdirmi?***

-Bilirsinizmi, biz bunu əsas götürmüşük ki, əlbəttə, münaqişəni siyasi yolla həll etməyə üstünlük verilməlidir və uzun illər boyu bizim bütün fəaliyyətimiz buna yönəlmişdi. Bu səbəbdən, dünən və bu gecə Moskvada aparılmış məsləhətləşmələr çərçivəsində biz onlardan danışıqlar masası arxasında tam təslim olmalarını tələb etmədik. Başa düşürük ki, Paşinyan rejimi yetərincə zəifləyib. Bu rejim daxili siyasi səbəblərə görə eskalasiyadan əvvəl də zəifləmişdi. İndi daha çox zəifləyib. Mən hesab etmirəm ki, indi Ermənistanda bir inqilab baş verməsi və qatı millətçilərin, radikalların, azərbaycanofobların hakimiyyətə gəlməsi Azərbaycanın xeyrinə olar. Buna görə biz razılaşdırılmış bəyanat çərçivəsində konkret tarixlər göstərilməsini təkid etmədik. Lakin, şübhəsiz ki, bu, erməni işğalçı qüvvələrinin bizim ərazilərdən razılaşdırılmış şəkildə çıxarılmasını nəzərdə tutur. Bəyanatda substantiv danışıqlara, yəni baza prinsiplərinə istinad edilir, orada isə hər şey konkret yazılıb: beş rayon nə vaxt azad ediləcək, daha iki rayon nə vaxt azad ediləcək.

***-Danışıqlar nə vaxt başlanacaq, bu barədə artıq anlaşma varmı?***

-Biz sabah başlamağa hazırıq. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır. Bizim tərəf dərhal başlamağa hazırdır. Yeri gəlmişkən, deməliyəm ki, bəyanatın mətni ilə əlaqədar Azərbaycan tərəfinin bütün istəkləri nəzərə alınıb. Bəyanatın ilkin variantı tamam fərqli idi. Dünən mən onu görəndə dedim ki, bu, bizim üçün münasib deyil. Sənədi həddən artıq qəlizləşdirmək, ağırlaşdırmaq, danışıqlar prosesinin son mərhələsində müəyyən edilməli olan elementləri oraya inkorporasiya etməyə çalışmaq lazım deyil. Onu maksimum sadələşdirmək lazımdır. Yadımdadır ki, orada olmayanları nəzərə aldıq, danışıqlara dərhal başlamaq bəndinin daxil olunmasını xahiş etdik. Yəni, biz mümkün qədər tez nizamlamada maraqlıyıq. Ona görə ki, nizamlama bizim vətəndaşların, qaçqınların, daxili köçkünlərin öz evlərinə qayıtmalarına imkan verəcək.

***-Burada olduğum iki gün ərzində başa düşdüyümə görə Azərbaycanda bu əhval-ruhiyyədədirlər ki, biz axıradək getməliyik. İndi azərbaycanlılara necə izah etməli ki, Bakı yenidən danışıqlara razılıq verib?***

-Biz axıra qədər gedəcəyik. Biz dayanmamışıq. Əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda, dünən dediyim kimi, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda axıra qədər gedəcəyik. Bizim məqsədimiz dəyişməz qalır.

Ardı Səh. 6

# “Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi”

## *Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib*

Əvvəli Səh. 5

Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılması. Buna görə bizim məqsədimiz dəyişməz qalır. Sadəcə, bu məqsədə doğru necə getməliyik? Biz həmişə siyasi yolla getməyə çalışmışıq, həmişə də eşitmişik ki, hərbi həll yoxdur. Biz sübut etdik ki, bu, belə deyil. Biz döyüş meydanında göstərdik ki, bu, belə deyil. Göstərdik ki, hərbi tərkib hissəsi olmasa, bu danışıqlar daha 30 il davam edərdi. O vaxta qədər nələr baş verərdi? Qanunsuz məskunlaşdırma. Bu, beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarının pozulmasıdır. Təəssüf ki, buna heç kəs - nə Minsk qrupu, nə Avropa İttifaqı, nə də BMT reaksiya vermədi. Azərbaycanın tarixi irsinin dağıdılması, bizim mədəni, tarixi, dini abidələrin məhv edilməsi, toponimlərin dəyişdirilməsi, rayonlarımızın inzibati sərhədlərinin dəyişdirilməsi, bizim dağların, çayların və şəhərlərin adlarının dəyişdirilməsi. Yəni, biz daha 30 il gözləməli olardıq, sonra da bizə deyərdilər ki, bilirsiniz, iş belə gətirib, bununla barışın. Bizə belə də deyirdilər. Buna görə düşünürəm ki, hərbi yol və ya onun birinci mərhələsi sona çatıb, indi biz siyasi nizamlama mərhələsinə çatmışıq. Məhz bu mərhələ bizim axıra qədər getməyimizi və hüquqa görə bizə məxsus olanı almağımızı təmin edəcək. Ona görə düşünürəm ki, Azərbaycan cəmiyyəti dünən və bu gecə baş verənləri çox düzgün qəbul edəcək və bizim siyasətimizi bundan sonra da dəstəkləyəcək. Çünki biz həmişə xalqa həqiqəti demişik. Həmişə xalqın mənafelərini müdafiə etmişik. Döyüş meydanında baş verənlər bunu bir daha hamıya sübut etdi.

***-Siz bütün bu hadisələrə qədər Ermənistanın baş naziri Nikol Paşinyan ilə bir neçə dəfə görüşmüsünüz. Bu hadisələrdən sonra Siz onunla bir masa arxasına əyləşməyə və ya danışmağa hazırsınızmı?***

-Bilirsinizmi, böyük etimad bəsləmədiyin adamla danışmaq çətindir. Mən onun sələfləri, müharibə cinayətkarları hesab etdiyim adamlarla danışıqlar aparmağa məcbur idim. Çünki onlar Xocalıda qanlı soyqırımı törədiblər, onlar Azərbaycanın dinc əhalisini məhv etməkdə, bizim tarixi və mədəni irsimizin dağılmasında təqsirkardırlar. Lakin mən məcbur idim. Ona görə ki, biz bu münaqişənin nizamlanması yolunu tapmalı idik. Ermənistanda yeni iqtidar, yeni rəhbərlik hakimiyyətə gələndə əvvəlcə onlarla əlaqələrimiz çox ümidverici idi. Mən bir də fə bu barədə danışmışam, təkrarlamaq istəmirəm. Lakin sonra tamam əks hadisələr baş verdi, yəni, biz özümüzü aldadılmış hiss etdik. Biz başa düşürük ki, rəqiblə danışıqlar aparırıq, lakin hətta rəqiblə, düşmənlə də münasibətdə vicdanlı qalmaq, heç olmasa öz qarşısında vicdanlı olmaq, öz sözünə hörmət etmək lazımdır. Bunlar baş verəndə təbii ki, bizim bu mənasız fəaliyyəti davam etdirmək istəyimiz aradan qalxdı. Opponentin hər kəlməsi yalandırsa, onun yalanları dünya KİV-lərində yayılırsa, bütün dünyaya translyasiya edilirsə, onunla nə barədə danışmaq olar? Yəqin onlar öz ölkələrində yalan danışmağa adət ediblər. Lakin internet dövründə tarix barədə, münaqişənin mahiyyəti barədə yalan danışanda bu yalan çox tezliklə ifşa olunur. Buna görə mən belə imkanı istisna etmirəm, lakin bunun üçün müəyyən şərait lazımdır. İndiki mərhələdə mən bunu səmərəli hesab etmirəm. Əksinə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Mən istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özümə heç vaxt rəva görməmişəm. Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik. Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi.

***-Siz indicə Rusiyanın rolu barədə danışdınız. Yəni, bu danışıqlarda Rusiyanın rolu həqiqətən həlledici olub.***

-Əlbəttə, Minsk qrupunun həmsədri kimi Rusiya ATƏT tərəfindən üç ölkəyə verilmiş hüquq və səlahiyyətlərə malikdir. Lakin sözsüz ki, Rusiya bizim qonşumuz kimi, həm Azərbaycanla, həm də Ermənistanla ortaq tarixə malik olan bir ölkə kimi, əlbəttə, xüsusi rol oynayır. Şübhəsiz, bu rol xalqlarımızın tarixinə və qarşılıqlı əlaqələrinə, həmçinin Rusiyanın dünyada və əlbəttə, bizim regionda sanbalına və roluna əsaslanır. Buna görə, əlbəttə, münaqişənin nizamlanmasına təsir göstərmək üçün Rusiyanın imkanları bu obyektiv səbəblərə görə hər hansı başqa ölkənin imkanları ilə müqayisəyəgəlməz dərəcədə çoxdur. Buna görə biz dəfələrlə Rusiya rəhbərliyinə müraciət etmişik ki, Rusiya rəhbərliyi Ermənistana siyasi təsir göstərmək vasitələrindən istifadə etsin, erməni tərəfini inandırsın ki, işğala son qoyulmalıdır. Bu mövzu dəfələrlə müzakirə edilib və sizə deyə bilərəm ki, rusiyalı həmkarımla bütün çoxsaylı görüşlərimdə bu mövzu ya müfəssəl, ya o qədər də ətraflı olmayan formada müzakirə edilib, lakin belə olmadı. Axı, gizli deyil ki, bu gün Ermənistan Rusiyadan 100 faiz asılı vəziyyətdədir. Onun təhlükəsizliyi Rusiya tərəfindən təmin edilir, pulsuz silahlanması Rusiya tərəfindən təmin edilir. Biz Ermənistana məxsus, bəlkə də milyardlarla dollar dəyərində texnikanı iki həftə ərzində məhv etdik. Onlarda bu pullar haradandır? Onların pulu yoxdur. Bütün bunlar Rusiyadan pulsuz göndərilir. Qaz təchizatı Rusiyadan güzəştli qiymətlərlə təmin olunur, elektrik enerjisi də müəyyən dərəcədə güzəştlə verilir. Dəmir yolları, rabitə, hərbi baza. Hətta Ermənistanın Türkiyə və İranla sərhədini rusiyalı sərhədçilər qoruyur. Əgər belə olmasaydı, sərhəd boş qalardı. Ermənistana təsir göstərmək üçün daha hansı ölkənin bu qədər vasitələri var? Heç bir ölkənin. Bəlkə də dünyada başqa elə iki ölkə yoxdur ki, onlardan biri digərindən bu qədər tam asılı olsun. Buna görə əminəm ki, Rusiya tərəfindən təkid göstərilsə, bizim status-kvonu dəyişməyimiz, təmas xəttini yarıb keçməyimiz nəticəsində İrəvanın ayılması nəzərə alınmaqla Rusiya qısa müddətdə Ermənistanı inandıra bilər: təkcə hərbi qarşıdurma baxımından deyil, bütövlükdə Ermənistanın gələcəyi üçün indiki vəziyyətdən yeganə çıxış yolu Azərbaycanla münaqişənin həllini tapmaqdır. Bu həll isə çox sadədir - onlar bizim ərazidən getməli, öz qoşunlarını çıxarmalı, bizim insanlar oraya qayıtmalı və biz yenidən yanaşı yaşamağa çalışmalıyıq.

***-İndi başqa ölkə - Türkiyə haqqında soruşmaq istəyirəm. Bu günlər ərzində Azərbaycanı və şəxsən Sizi dəfələrlə bunda ittiham ediblər ki, əslində, bu münaqişə ilə bağlı bütün məsələləri Türkiyənin hakimiyyət orqanları idarə edirlər. Dünən, bu gecə biz Türkiyəni danışıqlar masası arxasında görmədik. Nə üçün?***

-Bu, onu göstərir ki, bütün bu fikirlər yalan idi, bu, qəsdən ortaya atılmış məsələ idi, burada bir neçə məqsəd vardı. Əvvələn, Türkiyəni daha da iblisləşdirmək. Təəssüf ki, Qərbdə bu məqsəd müasir siyasi modanın hansısa normasına çevrilir. Bu, tamamilə əsassızdır. Türkiyə öz maraqlarını güdür, öz həyatını yaşamaq hüququnu qoruyur. Prezident Ərdoğanın dövründə Türkiyə Qərbin itaətkar müttəfiqi olmağa son qoyub. O, həm öz regionunda, həm də dünyada öz şərtlərini diktə edir. Türkiyə ilə hesablaşırlar. Türkiyənin nüfuzu artıb. Türkiyə ordusu NATO-da ikinci yeri tutur. O, istənilən hərbi-siyasi problemi həll edə bilər. Buna görə əlbəttə, Qərb tərəfindən bu cür açıq təzyiq göstərilir. Bu təzyiq hətta Türkiyəyə münasibətdə hansısa çox qəribə və mənfi emosional fonla bağlıdır. Yəni, birinci səbəb Türkiyəni iblisləşdirmək istəyidir. İkinci səbəb Azərbaycanın potensialını, o cümlədən hərbi-texniki potensialını azaltmaq və belə təsəvvür yaratmaq cəhdidir ki, hərbi məsələni Türkiyə və ya onun təsiri altında olan başqa birisi həll edib. Xeyr, biz öz torpaqlarımızı özümüz azad etmişik. Belə adlandırılan “müzəffər erməni ordusu” haqqında mif puç oldu, əslində, belə ordu yox idi. Münaqişənin tarixinə dərindən bələd olanlar çox gözəl bilirlər ki, bizim torpaqlarımız, o cümlədən sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən işğal edilib. Xankəndidə yerləşən bu alaydakı hərbi qulluqçuların məncə 70 faizi erməni mənşəli idi. Yəni bu, şəxsi heyəti ermənilərdən ibarət olan sovet silahları, sovet komandanlığı idi. Onlar həm etnik təmizləmələrdə, həm də soyqırımında fəal rol oynayırdılar.

***-Siz yəqin ki, 1990-cı illərin əvvəllərindəki hadisələri nəzərdə tutursunuz...***

-Şübhəsiz. 366-cı alayın dəstəyi və fəal iştirakı olmasaydı, Ermənistan bizim ərazilərı tuta bilməzdi. Ona görə bundan sonra belə bir mif yarandı ki, erməni ordusu müzəffərdir, Azərbaycan Ordusu onun qarşısında dayana bilməz. Buna görə bu mifi saxlamaq lazım idi, amma Azərbaycan tərəfindən acı məğlubiyyətə uğradıldığını etiraf etmək görünür, Ermənistan cəmiyyəti və Ermənistan rəhbərliyi üçün çox ağır idi. Üçüncüsü, onlara dünya arenasında Azərbaycanın rolunu və əhəmiyyətini azaltmaq lazım idi. Bunu etmək isə çox çətindir. Ona görə ki, bu gün dünya ölkələri ilə Azərbaycanın çoxşaxəli iqtisadi və siyasi əlaqələri var. Bu gün biz 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına rəhbərlik edirik və yekdilliklə seçilmişik. Əgər bizim ölkəmiz müstəqil potensiala malik olmasaydı, bu cür hörmət qazana bilərdikmi? Buna görə Azərbaycanın Türkiyə tərəfindən idarə edilməsi və bizim onun iradəsini yerinə yetirməyimiz barədə bütün insunasiyalar tamamilə yalandır. Bu, həm də Türkiyə-Azərbaycan qardaşlığını pozmağa və ya müəyyən qədər zəiflətməyə yönəlib, lakin baş tutmayacaq. Yeri gəlmişkən, Azərbaycan və Türkiyə ətrafında bütün bu informasiya hay-küyü üçün əsas olsaydı, bugünkü bəyanat olmazdı. Bu bəyanat mənimlə razılaşdırılıb, başqa heç kimlə. Əgər bizi kimlərsə idarə etsəydi, onda yəqin ki, məsələ belə tezliklə həll edilməzdi. Hazırda Türkiyə dünyada və regionda sabitləşdirici rol oynayır. Türkiyə rəhbərliyinin, şəxsən Prezidentin və digər rəsmi şəxslərin eskalasiya dövründə fəal və çox dəqiq mövqeyi, əslində, üçüncü ölkələrin bu münaqişəyə müdaxiləsinin qarşısını aldı. Buna görə hesab edirəm ki, Türkiyənin rolu yalnız müsbətdir və o, bizim regionda, o cümlədən münaqişənin həllində daha böyük rol oynamalıdır.

***-İndi Rusiyada çoxları “Türkiyə daha böyük rol oynamalıdır” frazasını eşidəcəklər. Bu sözlərin arxasında hansı məna var? Siz nəyi nəzərdə tutursunuz?***

-Fikrimcə, bu barədə danışmaq hələ tezdir, çünki mən Azərbaycan tərəfin mövqeyini bildirirəm. Lakin yaxın vaxtlarda müsahibələrimin birində demişəm ki, Minsk qrupu neçə illər bundan əvvəl - 1992-ci ildə, tamamilə başqa geosiyasi reallıqlar şəraitində formalaşıb. Əgər biz vasitəçilərin təmas qrupunu bu gün formalaşdırsaydıq, onun tərkibi fərqli olardı. Bu qrupun tərkibi münaqişə tərəflərinin niyyətlərini və istəklərini əks etdirməlidir. Minsk qrupunun tərkibi isə praktiki olaraq bunları əks etdirmir. Yeni təmas qrupunun və ya hansısa işçi qrupun, - onu necə adlandırmaq vacib deyil, - tərkibi regionda mövcud qüvvələr tarazlığını, region ölkələrinin mövcud maraqlarını əks etdirməli və nəticəyə istiqamətlənməlidir. Əks halda, bunun nə mənası var? Bunun heç bir mənası yoxdur. Əgər biz münaqişəni həll etmək istəyiriksə, o, yeni format çərçivəsində həll olunmalıdır. Baxın, son vaxtlar bir sıra qaynar nöqtələr barəsində ölkələrin mövqelərini razılaşdırmaq üçün nə qədər yeni əməkdaşlıq formatı yaradılıb - üçtərəfli, dördtərəfli. Axı, onlar indi yaradılır, hansısa ehkamlar əsasında deyil, real qüvvələr nisbəti əsasında yaradılır. Buna görə burada əsla şübhə ola bilməz ki, Türkiyə münaqişənin nizamlanması işində mühüm rol oynamalıdır və oynayacaq. Bunun hansı formada - hüquqi, yoxsa de-fakto həyata keçirilməsi artıq texniki məsələdir.

***-Rusiyanın rolu barədə. Mən Bakıda gəzəndə çoxlu Azərbaycan bayrağı gördüm, bir qədər az, lakin yenə də çox sayda Türkiyə bayrağı gördüm və bircə dənə də Rusiya bayrağı görmədim. Bu, o deməkdirmi ki, Azərbaycanda Rusiyanın təsiri azalıb və ya Azərbaycanda insanların Rusiyaya münasibəti dəyişib?***

-Düşünmürəm ki, münasibət dəyişib. Türkiyə bayraqlarının çox olması təbiidir. Biz qardaş xalqlarıq. Bu gün Türkiyə ilə Azərbaycan arasında etimad, qarşılıqlı dəstək və münasibətlərin səviyyəsi elədir ki, mənim fikrimcə, dünyanın hər hansı başqa, hətta ən yaxın ölkələri arasında elə səviyyə yoxdur. Bu, reallıqdır və bu reallığı biz yaratmışıq - Türkiyənin və Azərbaycanın rəhbərliyi. Özü də məsələ bizim ortaq köklərimizlə və ortaq tariximizlə bağlı deyil. Dünyada Türkiyə və Azərbaycan kimi etnik kökləri yaxın olan, lakin öz aralarında döyüşən xalqlar var. Bu, sizə də çox yaxşı məlumdur. Yaxud bir-biri ilə intriqa aparırlar. Buna görə Azərbaycanda Türkiyə bayraqlarının olması reallıqdır və əgər siz Türkiyəyə getsəniz orada da çox yerlərdə Azərbaycan bayraqlarını görərsiniz.

Ardı Səh. 7

# "Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi"

*Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib*

**Əvvəli Səh. 6**

Rusiyaya münasibət məsələsinə gəldikdə isə sizə bir fakt göstərə bilərəm. Pandemiyaya qədər bizdə Azərbaycana səfər edən Rusiya vətəndaşlarının sayı hər il təxminən 15-20 faiz artırdı. Keçən il bu göstərici bir milyona yaxın olub. Mən həmişə demişəm, rusiyalıları buraya cəlb edən təkcə bizim mətbəximiz, təkcə çimərliklər, təkcə tarix deyil, həm də odur ki, onlar burada özlərini rahat hiss edirlər. Öz mühitlərində olduğu kimi hiss edirlər, burada insanlarla rus dilində danışırlar. Yəqin bilirsiniz ki, bizdə, Azərbaycanda təhsilin rus dilində olduğu neçə məktəb var. Onların sayı 300-dən çoxdur. Heç yerdə belə deyil. Rusiya ali məktəbləri, onların filialları. Rusiyanın musiqi, teatr kollektivləri pandemiyaya qədər demək olar ki, hər həftə burada olurdu. Buna görə də Rusiyaya və Rusiya Federasiyasında yaşayan ruslara Azərbaycanda yalnız müsbət münasibət var. Siz artıq bir neçə gündür ki, buradasınız və erməni işğalı amilinin insanların ovqatına nə dərəcədə təsir göstərdiyini bilirsiniz. İnsanlar hər bir sözü, hər bir jesti, hər bir mimikanı duyurlar. Əlbəttə, açıq deməliyəm, bu müddətdə, bu günlər, bu həftələr ərzində bəzi Rusiya kanallarında qatı antiazərbaycan təbliğatını, tok-şouların iştirakçılarının saxtakarlığını, manipulyasiyasını, iştirakçılar heyətinin tarazlaşdırılmış olmamasını görəndə, Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir ediləndə, əlbəttə, bunlar Rusiyanın nüfuzunu artırmır. Mən bu məsələni Rusiya rəhbərliyinin diqqətinə çatdırmışam. O mənada yox ki, bunlar bizi narahat edir, Azərbaycan cəmiyyəti və ictimai fikri Azərbaycanın daxilində formalaşır. O mənada ki, belə münasibət haçansa bizim planlarımızda müəyyən çətinliklərə gətirib çıxara bilər. Rusiya ilə biz qarşılıqlı əlaqələri daha da inkişaf etdirməyi planlaşdırırıq. Hazırda biz iqtisadi və digər sahələrdə əməkdaşlıq üzrə beş yol xəritəsi üzərində fəal iş aparırıq. Siyasi baxımdan çox yaxşı məsələlər var. Lakin bu müddətdə Rusiya mediasında üzləşdiyimiz informasiya hücumu, əlbəttə, ictimai fikirdə Rusiyaya münasibətə böyük ziyan vurub. Düşünürəm ki, bu vəziyyəti qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazım gələcək.

*-Sizə daha iki sualım var. Yadınızdadırmı, sentyabrın 27-də gecə və ya səhər çağı cavab verməyə başlamaq lazım olması, bu müharibəyə başlamaq lazım olması barədə qərar necə qəbul edildi?*

-Qərarlar, praktiki olaraq, avtomatik rejimdə qəbul edilir. Azərbaycan Ordusunun hərbi qulluqçuları üçün müəyyən təlimatlar var. Düşünürəm ki, bunlar hər orduda var. Təhlükə halında, hücum halında sən necə hərəkət etməlisən. Yəni, burada necə hərəkət etmək barədə tərəddüd etmirdik. Xüsusən ona görə ki, biz bu hücumu gözləyirdik. Eskalasiyadan bir neçə gün əvvəl mən bu barədə BMT-nin kürsüsündən danışmışdım. Mənim çıxışımın mətninə baxa bilərsiniz. O vaxt mən demişdim ki, Ermənistan müharibəyə hazırlaşır. Ermənistanı dayandırmaq lazımdır. Bunun üçün dəlillər çox idi. Əvvələn, Ermənistanın müdafiə nazirinin keçən il Amerikada verdiyi bəyanat. Özü də o, bəyan etmişdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Sonra Paşinyanın "Qarabağ Ermənistandır" məzmunlu bəyanatları və sair. Daha sonra Livandan olan ermənilərin nümayişkaranə şəkildə Şuşada məskunlaşdırılmasından ibarət təhrikçi hərəkətlər müharibə cinayətidir. Daha sonra Şuşada, yeri gəlmişkən, işğalçı rejimin orada mövcud olduğu müddətdə ilk dəfə qondarma "andiçmə" mərasimi keçirməklə Azərbaycan xalqının təhqir edilməsi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentini Xankəndidən Şuşaya köçürmək cəhdi və bir sıra başqa əməllər. Bütün bunlar bizə qarşı təxribat idi. Sonra iyul hadisələri. Bizim hərbi mövqelərimizə təxribatçı hücumlar. Elə ilk saatlarda biz dörd hərbi qulluqçumuzu, sonra bir mülki vətəndaşımızı itirdik. Sonra avqust hadisəsi. Goranboy rayonunda təmas xəttindən keçmiş təxribat qrupunun başçısı indi ifadə verir. Biz gözləyirdik, biz hazır idik. Təbii ki, qərar, o cümlədən mənim tərəfimdən avtomatik rejimdə, heç bir tərəddüdsüz qəbul edildi. Biz təcavüzkarı yerində oturtmalı idik. İyul ayında Azərbaycan cəmiyyəti bunun davam etdirilməsini tələb edirdi. Yəqin ki, siz bunu bilirsiniz.

*-Bəli, mitinq olmuşdu.*

-Bəli. İyul ayında mitinqdə səslənən əsas şüar belə idi: "Ali Baş Komandan, bizə silah ver!" İnsanlar belə deyirdilər. İyul ayında biz Ermənistanla dövlət sərhədini rahatca keçərək Ermənistan Respublikasının geniş ərazilərini tuta bilərdik, amma biz bunu etmədik.

*-Bu hadisələr Qarabağda olmamışdı.*

-Tamamilə doğrudur. Biz bunu etmədik. Orada heç bir çətinlik yox idi və biz bunu indi göstərdik, 30 il ərzində ciddi eşelonlaşdırılmış müdafiə xəttini qırdıq, orada relyef özü müdafiə üçün münasibdir. Biz aşağıdan yuxarıya getdik, beton plitələri sındırdıq, Azərbaycan Ordusunun qeyri-adi səyləri, əsgərlərimizin və zabitlərimizin qəhrəmanlığı lazım gəldi. Oradan Ermənistanın istənilən nöqtəsinə keçmək bizim üçün çox asan idi. Lakin mən bunu dayandırdım, dedim ki, yox, biz bunu etməyəcəyik, biz onlar deyilik. Biz Ermənistanın beynəlxalq aləmdə tanınmış ərazisinə keçməyəcəyik və biz sərhədə qədər getdik, oraya soxulmuş işğalçıları qovduq və dayandıq. Yəni bundan sonra biz təcavüzkarı cəzalandırmalı idik ki, o, bir də bizim tərəfə baxmağa belə cəsarət etməsin. Biz bunu etdik, baxın, görün indi Paşinyan necə rəzil vəziyyətdədir. Alçalır, zəng edir, yalvarır, daha kimlərə zəng etmir. Avropa İttifaqı hökumətlərinin başçılarına. Bəs, o, nə tələb edir? Onların "Dağlıq Qarabağ respublikası"nı tanımasını tələb edir. Yəni bu, Ermənistan rəhbərliyinin tamamilə qeyri-adekvat olmasına dəlalət edir. Azərbaycan ilə Avropa İttifaqı arasında sazişlər var, - onlardan biri 2 il bundan əvvəl paraflanıb, - orada deyilir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və sərhədlərinin toxunulmazlığına hörmət edir. Avropa İttifaqının üzvü olan yeddi ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər var. Bu ölkələrin hamısı Azərbaycanın ərazi bütövlüyünü tanıyır. "Dağlıq Qarabağ respublikası"nın tanınmasını siyasətdən və beynəlxalq sahədə hər hansı biliklərdən tamamilə uzaq olan adam tələb edə bilər. Görün, onlar nə həddə çatıblar. Biz onları cəzalandırmalı idik. Biz onlara yerlərini göstərməli idik ki, bizimlə belə danışmaq olmaz, bu, onlara asan başa gəlməyəcək. Belə də oldu. O, anaların göz yaşlarına, cəbhəyə göndərdikləri Ermənistanın günahsız gənc vətəndaşlarının ölümünə görə cavab verəcək.

*-Azərbaycanın qaytardığı ərazilərlə bağlı vəziyyət necə olacaq, orada indi nə edəcəklər?*

-Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. Bu insanların sevincini, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının, Hadrutun təqribən 30 ildən sonra öz torpaqlarına qayıdacaq sakinlərinin sevincini təsəvvür edə bilərsiniz. Budur, azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb. Biz bunu bilirdik. Bu, Stalinqraddan da betərdir. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Başa düşürsünüzmü, onlar hətta pəncərə çərçivələrini də, unitazları da oğurlayıblar. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur. Ona görə də biz bu əraziləri bərpa edəcəyik.

*-Təzədən tikəcəksiniz?*

-Təzədən, əlbəttə. Biz kömək edəcəyik. Biz məcburi köçkünlər üçün tikinti proqramına əsasən təkcə bu il 7 min mənzil istifadəyə verəcəyik. Təsəvvür edirsinizmi? Orta hesabla hər mənzildə 5 nəfər nəzərdə tutulsa, biz bir ildə 35 min nəfəri yerləşdirəcəyik. Yəni bu, kiçik və ya hətta bizim şəraitdə orta ölçüdən böyük bir şəhər deməkdir. Zərər çəkmiş 300 mindən çox köçkünü artıq yerləşdirmişik. Köçkünlər üçün şərait yaratmaq məqsədilə biz hər il büdcədən külli məbləğdə vəsait ayırırıq. Hər bir köçkün hər ay dövlətdən müavinət alır. Demək istəyirəm ki, orada biz bu işləri görəcəyik. Biz Cəbrayılı təzədən tikəcəyik. Bütün kəndləri yenidən quracağıq. Orada yaşayacaq insanlar tikinti işlərinə cəlb ediləcəklər. Onlar öz evlərini bərpa etmək üçün məvacib alacaqlar. Oraya həyat qayıdacaq, oraya uşaqların gülüşü qayıdacaq. İnsanlar rahat nəfəs alacaq, hiss edəcəklər ki, ləyaqətlərini özlərinə qaytarıblar. İllər boyu azərbaycanlıların bu vəziyyətdə necə yaşamalarını təsəvvür edin. Təmas xəttində binoklla baxanda bizim dağıdılmış şəhərləri görərkən mənim keçirdiyim hissləri təsəvvür edin. Qoy, erməni tərəfi fikirləşsin. O, indi bunun nə demək olduğunu başa düşməyəcək. Lakin əvvəl düşünmək lazım idi, azərbaycanlıların hisslərini təhqir etmək lazım deyildi. Biz xeyirxah, sülhsevər xalqıq. Lakin biz öz ləyaqətimizi tapdalamağa, bizi təhqir etməyə imkan verməyəcəyik. Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı.

*-Siz özünüz həmin ərazilərə getməyə hazırlaşırsınızmı?*

-Əlbəttə. 2016-cı ildə biz Cocuq Mərcanlını işğaldan azad edəndə mən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət edib dedim ki, bu kəndin sakinlərindən öyrənin, onlar oraya qayıtmaq istəyirlərmi? Ona görə ki, çox illər keçib, onların çoxu Bakıdadır, çoxlarının işi, uşaqları, məktəbləri var, çoxları Azərbaycanın digər regionlarında yaşayır. İş yerini dəyişmək, xüsusən hər şeyin dağıdıldığı yerə dəyişmək o qədər də asan məsələ deyil. Bilirsinizmi, bir müddətdən sonra mənə bildirdilər ki, həmin adamlar növbəyə düzülüblər. Hətta heç vaxt orada olmamış, sonradan doğulmuş gənclər də. Hamısı xahiş edirdi ki, tezliklə oraya qaytarılsınlar və biz bir ildən az müddətdə 150 evdən ibarət qəsəbə saldıq, orada məktəb, tibb müəssisəsi, məscid və bütün infrastruktur obyektləri tikdik, qaz, yol çəkdik. Bu, bizim qayıtmağımızın rəmzi oldu. Mən oraya gedəndə və bu insanların üzündəki fərəhi, sevinc göz yaşlarını görəndə bir daha özümə dedim ki, biz hökmən öz evlərimizə qayıdacağıq və əlbəttə, oranı bərpa edəcəyik. Bu illər ərzində əziyyət çəkmiş, öz doğma yurdlarının həsrəti ilə dünyasını dəyişmiş insanların ruhu şad olsun, onların övladları isə həyatlarının qalan hissəsini xoşbəxt yaşasınlar.

*-Çox sağ olun.*

-Sağ olun.

# İtaliyalı senator Ermənistanın Gəncəyə raket hücumunu pisləyən açıqlama yayıb

***İtaliya parlamentində İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü, senator Stefano Luçidi Ermənistan hərbi qüvvələrinin atəşkəs rejimini pozaraq Gəncə şəhərini və oradakı mülki əhalini raket hücumuna məruz qoymasını pisləyən açıqlama verib.***

AZƏRTAC xəbər verir ki, italyan senator Azərbaycan və Ermənistanın Moskvada Rusiya tərəfindən təşkil edilmiş üçtərəfli görüşdə oktyabrın 10-u saat 12.00-dan etibarən atəşkəslə bağlı razılaşdığını və həmin görüşdə tərəflərin eyni zamanda ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin sülh yollu ilə həlli üçün danışıqların bərpa edilməsi ilə bağlı qərar verdiyini diqqətə çatdırıb.



Ermənistan tərəfindən atəşkəsin pozulması və Azərbaycan şəhərlərinə qarşı kaset bombalardan hücumlar etməsi ilə bağlı xəbərlərin daxil olduğunu bildirən senator Luçidi qeyd edib ki, Ermənistan silahlı qüvvələri oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri olan və təmas xəttindən uzaqda yerləşən Gəncə şəhərinə raket hücumları edib, nəticədə 10 nəfər mülki şəxs həlak olub və aralarında azyaşlı uşaqlar da olmaqla 34 nəfər yaralanıb. Senator İtaliya hökumətinin Moskvada əldə olunan atəşkəsin pozulmasını qəti şəkildə pisləməli olduğunu deyib, bu bölgədə sabitliyin təmin edilməsinin istər əhalinin təhlükəsizliyi, istərsə də İtaliyanın maraqları baxımından çox vacib olduğunu vurğulayıb.



# "Hazırda təbii ehtiyatlarımız inkişafımıza xidmət edir və təbii ehtiyatlarımızın insan kapitalına çevrilməsi bizim əsas prioritetlərimizdən biridir"

*Virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində Prezident İlham Əliyevin videomüraciəti təqdim olunub*

***Oktyabrın 12-də "Kiber Kosmos buraxılışı" mövzusunda virtual 71-ci Beynəlxalq Astronavtika Konqresi keçirilib. AZƏRTAC xəbər verir ki, konqresin açılış mərasimində Prezident İlham Əliyevin videomüraciəti təqdim olunub.***

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti xanım Paskal Erenfroynd: Gələcəyə baxaraq, gələn 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək Azərbaycana, Bakıya bağlanaq. Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə söz verməkdən şərəf hissi duyuram.

Azərbaycan Prezidenti İlham Əliyev: Hörmətli xanımlar və cənablar, mən sizi Azərbaycanın paytaxtı Bakıdan səmimi qəlbdən salamlayıram. Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. İlk növbədə, mən bizim namizədliyimizi dəstəklədiyinə görə Beynəlxalq Astronavtika Federasiyasının üzvlərinə, Bürosuna və komitələrinə minnətdarlığımı bildirmək istərdim. Azərbaycan bir dəfə - 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edib. Beləliklə, 50 ildən sonra - 2023-cü ildə paytaxtımızda ikinci konqresə ev sahibliyi etməyimiz rəmzi məna kəsb edəcək. Lakin həmin vaxt Azərbaycan müstəqil deyildi. Azərbaycan Sovet İttifaqının tərkibində idi, Sovet İttifaqının 15 respublikasından biri idi. 1973-cü ildə Azərbaycanın konqresə ev sahibi seçilməsi xalqımızın və Azərbaycanın yüksək intellektual və texniki potensialını nümayiş etdirdi. Üç ildən sonra biz sizi Bakıda görəcəyik. Əlli ildən sonra Konqresin bizim şəhərimizə - lakin indi müstəqil Azərbaycanın paytaxtına qayıtması çox rəmzi məna kəsb edəcək.

Müstəqillik dövründə Azərbaycan möhtəşəm inkişafa nail olub. Azərbaycan beynəlxalq arenada fəal ölkələrdən biridir. Bu gün Azərbaycan Birləşmiş Millətlər Təşkilatından sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına sədrlik edir. Bizim iqtisadi göstəricilərimiz statistikada öz əksini tapıb. Son 17 ildə ümumi daxili məhsulumuz üç dəfə artıb, yoxsulluq səviyyəsi demək olar ki, 50 faizdən 5 faizə düşüb, xarici borcumuz ümumi daxili məhsulumuzun təxminən 20 faizi həcmindədir və ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur.

Hazırda təbii ehtiyatlarımız inkişafımıza xidmət edir və təbii ehtiyatlarımızın insan kapitalına çevrilməsi bizim əsas prioritetlərimizdən biridir.

Bu gün Azərbaycan kosmik klubun üzvüdür və Azərbaycan 3 peyki ilə bu istiqamətdə öz fəaliyyətini davam etdirməyi planlaşdırır. Mən əminəm ki, 2023-cü ildə paytaxtımızda keçiriləcək Konqres ölkəmizdə kosmik sənayenin inkişafına əlavə stimul verəcək. Sizə uğurlar arzu edirəm və 2023-cü ildə Bakıda görüşərik. Təşəkkür edirəm.

Xanım Paskal Erenfroynd: Cənab Prezident, bu ilhamlandırıcı çıxışınız üçün çox sağ olun. 2023-cü ildə Bakıya gəlməyi səbirsizliklə gözləyirik.

Qeyd edək ki, Azərbaycanda kosmik sənayenin inkişafının təməlini ulu öndər Heydər Əliyev qoyub. 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinin ölkəmizdə keçirilməsi bunun bariz nümunəsidir. Bu tədbir xalqımızın yüksək intellektual potensialı ilə yanaşı, texniki potensialını da bütün dünyaya nümayiş etdirib. Ulu Öndərin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə elm, texnologiya, İKT, o cümlədən kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində son illərdə çox mühüm işlər görülüb. Kosmik proqramların hazırlanması və reallaşdırılması müstəqillik tariximizin ən böyük uğurlarından biri kimi tarixə düşüb. Son 5 ildə ölkəmizin orbitdə 3 peykə sahib olması Azərbaycanı dünya kosmik klubunun fəal üzvünə çevirib. Bununla da Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı ölkələrdən biri olduğunu təsdiqləyib. 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi olmaqla yanaşı, həm də ölkəmizin İKT sahəsində son illərdə əldə etdiyi böyük uğurlarla bağlıdır.

Beynəlxalq Astronavtika Konqresi 1950-ci ildən hər il fasiləsiz təşkil edilir. Bu il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunması planlaşdırılan 71-ci Beynəlxalq Astronavtika Konqresi COVID-19 pandemiyası səbəbindən Beynəlxalq Astronavtika Federasiyası tərəfindən növbəti ilə keçirilib. Lakin tədbirin davamlılığının təmin edilməsi məqsədilə 71 ölkəni təmsil edən 407 təşkilatın üzv olduğu Federasiya builki Konqresi oktyabrın 12-14-də virtual formatda keçirir. Bu Konqres kosmik sahədə aparıcı agentliklərin, elm mərkəzlərinin və beynəlxalq təşkilatların rəhbərləri, məşhur alimlər, özəl sektordan olan yüksək səviyyəli peşəkarlar, gənc tədqiqatçılar və tələbələr də daxil olmaqla, dünyanın 70-ə yaxın ölkəsindən ümumilikdə 6 mindən çox mütəxəssisi bir araya toplayan qlobal platformadır.

# Mehriban Əliyeva: Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutmaqda davam edirlər. Bu, humanitar atəşkəs rejiminin, habelə 1949-cu il Cenevrə konvensiyalarının kobud şəkildə pozulması deməkdir.***

Bu gecə saat 2 radələrində Gəncə şəhərinə amansızlığına görə misli görünməmiş zərbə endirilib. Əldə olan məlumata görə, raket atəşi nəticəsində 9 nəfər (o cümlədən 4 qadın) həlak olub, 34 nəfər yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan vurulub.

Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib. Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb. Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir.

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram. Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər.

Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Əziz həmvətənlər!

Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!".


HUNDERTE TOTE UND VERLETZTE
Erster Tag der „Waffenruhe" wird zum Massaker

# "Bild": Atəşkəsin ilk günü qanlı qırğına çevrildi!

"Atəşkəsin ilk günü qanlı qırğına çevrildi". AZƏRTAC xəbər verir ki, Almaniyanın nüfuzlu "Bild" nəşrində bu gün dərc edilən bir materialın sərlövhəsi belədir (bax: https://www.bild.de/politik/ausland/politik-ausland/hunderte-tote-und-verletzte-erster-tag-der-waffenruhe-wird-zum-massaker-73358678.bild.html).

Müəllifi jurnalist Pol Rontshaymer olan bu materialda oktyabrın 10-dan 11-nə keçən gecə dinc Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmasından danışılır, hücumdan zərər çəkən uşaqların, qadınların, dağıdılmış binaların fotoşəkilləri təqdim edilir. Hücum nəticəsində həlak olanların və yaralananların ümumi sayı təqribən 40 nəfər olub. Müəllif yazır ki, atəşkəsə olan ümidlər özünü doğrultmadı. Erməni ordusunun hücumu, görünür, əvvəlcədən planlaşdırılmışdı.

Jurnalist xüsusilə qeyd edir ki, gecəni keçirdiyi Xankəndidə sakitlik idi. "Lakin əhalisinin sayına görə (330 min) Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə ziyan çəkdi. Təqribən gecə saat 2 radələrində şəhərin şimal-şərqində güclü partlayış oldu. Şahidlərin dediyinə görə, partlayışdan sonra səmada nəhəng iz qalıb. Səhər fəlakətin miqyası araşdırılıb. Əvvəllər bir neçə binanın olduğu yerdə nəhəng çuxur əmələ gəlmişdi. Partlayış nəticəsində azı 9 dinc sakin həlak olub, 33 nəfər, o cümlədən xeyli uşaq yaralanıb", - deyə Rontshaymer yazır. Raket texnologiyaları üzrə almaniyalı ekspert Fabian Hints raketin düşdüyü yerin təsvirini "Bild" üçün təhlil edib. O deyib: "Bu, ballistik raket idi. Gəncə erməni reaktiv artilleriyasının vura biləcəyi hüdudda yerləşir. Ziyan o dərəcədə böyükdür ki, bu, yəqin, iriçaplı raket olub". Müəllif yazır ki, F.Hints raketin Ermənistan cəbhə xəttinin azı 60 kilometrliyində yerləşən ərazisindən buraxılmasına əmindir. "Ballistik raketlər olduqca böyük dağıdıcı təsirə malikdir. Bu raketlərdən həqiqətən əhalinin sıx yaşadığı ərazilərə qarşı istifadə etmək mümkündür", - deyə Rontshaymer Hintsin fikrindən sitat gətirir.

# BBC Ermənistanın Gəncəni raket atəşinə tutması ilə bağlı reportaj yayımlayıb



BBC telekanalı Ermənistanın Gəncə şəhərini raket atəşinə tutması ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin dağıntılar içində olduğu bildirilir. Bu görüntülərin Ermənistan tərəfindən atılan ballistik raketin qalıqları olduğu qeyd edilir. Vurğulanır ki, Azərbaycan Ermənistanı müharibə cinayəti törətməkdə ittiham edir. Reportajda deyilir: "Aydın görünür ki, insanların məskunlaşdığı binaların, mənzillərin yerləşdiyi bu ərazi mülki hədəf olub. Dağıntılar arasında ətrafa səpələnmiş yataq dəstləri, döşəklər, örtüklər var. Hücum gecə saat 2 radələrində baş verib. Atəşkəs rejimi tətbiq olunmalı idi. Ancaq bu, daha çıx total müharibəyə oxşayır".

Bəs sonra nə olacaq? Müxbir bu suala Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə müraciət edib. Hikmət Hacıyev bildirib ki, indiki mərhələdə biz atəşkəs mərhələsinə əməl etməyə çalışırıq. Ancaq əlbəttə ki, ermənilər bizim mülki vətəndaşlarımıza qarşı hücumları davam etdirsələr, hər bir ölkənin olduğu kimi, bizim də özümüzü müdafiə hüququmuz var. Əgər Ermənistan Azərbaycanın mülki obyektlərinə hücumu davam etdirsə, o zaman Azərbaycan legitim hərbi hədəflərə qarşı lazımi tədbirləri görmək məcburiyyətində qalacaq.

# Vətəndaş məktubları: Cənab Prezident, Sizin uzaqgörən daxili və xarici siyasətinizi ürəkdən bəyənir, dəstəkləyirik

***Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident İlham Əliyevə çoxsaylı məktublar ünvanlayırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Türkiyənin paytaxtı Ankaradan Şavluk Baycan yazır: "Hörmətli cənab Prezident, mən 1918-1920-ci illərdə ermənilərin törətdiyi qətliamlar səbəbindən Azərbaycan torpaqlarından Türkiyənin İğdır vilayətinə köçmək məcburiyyətində qalmış bir ailənin üzvüyəm. Atababalarım bizi daim Azərbaycan haqqında xatirələrlə böyütdülər. Bizdəki Vətən həsrəti o qədər dərin olmuşdur ki, mərhum atam qardaşımın adını Azər, mənim adımı isə Baycan qoymuşdur. Allah mənə bir müddət Bakıda işləməyi nəsib etdi və çox şükür ki, Vətənimi gördüm. Böyüklərimiz həmişə "İnşallah, bir gün biz bütün torpaqlarımızı erməni qatillərindən geri alacağıq!" deyirdilər. Bu gün o gündür! Bu yolda üzərimə nə vəzifə düşərsə, onu can-başla yerinə yetirməyə hazıram. Hörmətli Prezidentim, Sizdən bircə xahişim var: lütfən, heç bir şərtlə geri addım atmayın! Türkiyə bütün gücü ilə Azərbaycanın yanındadır! Allah Sizə, Ordumuza və millətimizə yardım etsin!".

Bakı şəhərinin sakini Ayxan Rəhimli: "Hörmətli, sevimli və mehriban Prezidentimiz, mən bir şagird olaraq Sizinlə, Azərbaycan Respublikası və onun igid əsgərləri ilə fəxr edirəm. Azərbaycanlı olduğum və Azərbaycanda doğulduğum üçün Vətənimlə qürur duyuram. Yaşım çox az olsa da, mən də Vətənim üçün canımı fəda etməyə hər zaman hazıram. Ulu öndər Heydər Əliyev və Siz bizim dövlətimizi dirçəltmisiniz. Biz fəxr edirik ki, Sizin kimi dövlət başçımız var. Azərbaycan Respublikası Sizlərin sayəsində çiçəkləndi və daha da inkişaf etdi. Siz mənim gözümdə Azərbaycanın Milli Qəhrəmanısınız. Sizə hər şey üçün minnətdarıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Gəncə şəhərinin sakini Nina Ujova: "Çox hörmətli Prezident, cənab Ali Baş Komandan, mən Gəncə şəhər sakiniyəm. Uzun illər Gəncə dəmir yolu stansiyasında müxtəlif vəzifələrdə çalışmışam. Hazırda təqaüddəyəm. Azərbaycanda və eləcə də Gəncədə yaşayan milliyyətcə rus olan digər sakinlərimiz kimi həmişə vətəndaşı olduğumuz Azərbaycan dövləti və eləcə də xalqı tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşuq. Azərbaycan torpağı, onun hər qarışı bizim üçün əziz, doğma olub. O cümlədən Azərbaycanın qədim torpaqları olan Qarabağ torpağı da. Mənfur düşmən doğma Qarabağımızda, eləcə də imkanı düşdükcə, respublikamızın digər bölgələrində uzun illər boyu Azərbaycan xalqına qarşı vandalizm, terror və vəhşiliklər törətməkdən doymayaraq indi də Qarabağda döyüş zonalarında qazandığınız uğurlara dözə bilməyərək Azərbaycanın digər şəhər və



rayonlarına qarşı insanlığa yaraşmayan hərəkətlər etməyə başlayıblar ki, bu da onların daxili xislətlərinin terrorla yoğrulduğunu bir daha sübut edən bir amildir. Belə ki, işğalçılar raketlərdən istifadə etməklə Azərbaycanın 2-ci böyük şəhəri olan, mənim də sakini olduğum Gəncə şəhərini vurmaları vandallığın, alçaqlığın, xəbisliyin, mədəniyyətsizliyin, şərəfsizliyin, qəddarlığın, bir sözlə barbarlığın, məkrli xislətin bariz nümunəsidir. Cənab Ali Baş Komandan, biz Azərbaycanda yaşayan, Azərbaycanı özünə doğma el-obası, əziz Vətəni bilən rus millətindən olan bütün sakinləri Sizi çox sevirik! Biz əminik ki, doğma torpaqlarımız bela bir mənfur düşmənin tapdağından Sizin komandanlığınız altında igid zabit və əsgərlərimizin şücaəti nəticəsində azad olunacaq və biz Azərbaycanın xoşbəxt vətəndaşları olan digər etnik millətlərin nümayəndələri ilə birlikdə üçrəngli bayrağımızın Qarabağın işğal altında olan hər bir bölgəsində dalğalanmasının şahidi olacağıq. Qoy Uca Tanrı "Qarabağ Azərbaycandır!" səsləndirdiyiniz bu tarixi haqq yolunda apardığınız şanlı mübarizədə Sizə yar olsun. Amin".

Lənkəran sakini Sədrəddin Babayev: "Hörmətli Ali Baş Komandan, Sizə ailəmiz adından dərin təşəkkürümüzü bildiririk. Uzun illərdir işğal altında olmuş Cəbrayıl torpağının düşməndən azad olunduğu xəbərini Sizdən eşitmək bizi daha da sevindirdi və döyüşə ruhlandırdı. Hamıya yaxşı məlumdur ki, rəşadətli Azərbaycan Ordusunun Qələbəsi Sizin uzaqgörənliyinizin nəticəsidir. Həyatımızın ən böyük sevincini Siz bizə yaşatdınız. Xalqımız Sizinlə hər an fəxr edir. Həmişə var olun, Vətənin igid və cəsur oğlu. Əziz Prezidentimiz, biz televiziyadan Sizin çıxışlarınızı izləyəndə Azərbaycana necə vurğun olduğunuzun bir daha şahidi oluruq. Siz Azərbaycanın əzmli, qətiyyətli siyasətçisi və dövlət başçısısınız. Möhtərəm Ali Baş Komandan, səmimi qəlbdən Sizi alqışlayırıq, Sizə və ailənizə cansağlığı diləyirik".

Cəbrayıl rayon sakini Ədalət Xəlilov: "Hörmətli Ali Baş Komandan, Sizə ailəmiz adından dərin təşəkkürümüzü bildiririk. Uzun illərdir işğal altında olmuş Cəbrayıl torpağının azad olunması xəbərini Sizdən eşitməyimiz bizi daha da sevindirdi. Doğma Cəbrayılımızın azad olunması münasibətilə bütün xalqımızı təbrik edirik. Xalqımız Sizinlə həmişə fəxr edəcəkdir. Hörmətli Ali Baş Komandan, nə qədər ki, əlimiz silah tutur, Vətən uğrunda döyüşməyə hazırıq. Həmişə var olun, Vətənin igid və cəsur oğlu!".

Xocavənd sakini Həsrət Məmmədov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, 29 ildən sonra doğma Xocavəndimizin Hadrut qəsəbəsinin erməni işğalından azad edildiyi sevincini bizə bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz xocavəndlilər Sizin uzaqgörən siyasətinizi dəstəkləyirik. Verdiyiniz qərarlarla, qətiyyətli mövqeyinizlə bizi qələbədən qələbəyə aparırsınız. İnanırıq ki, Sizin rəhbərliyinizlə qəhrəman Ordumuz yeni-yeni zəfərlər qazanacaq. Hörmətli Ali Baş Komandan, biz xocavəndlilər daim Sizin əmrinizi gözləyir, ölkəmizin ərazi bütövlüyü uğrunda mənfur düşmənə qarşı döyüşməyə hər an, hər dəqiqə hazır olduğumuzu bildiririk. Yaşasın müstəqil Azərbaycan!".

Bərdə rayon sakini Mehparə Qənbərova: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bir Bərdə rayon sakini kimi, düşmənin dinc əhaliyə atdığı mərmilərdən qorxmayaraq, yaşayış yerimizi tərk etmədən, onlara sipər oluruq və Sizin qələbə xəbərinizi gözləyirik. Sizin və şücaətli, qəhrəman ordumuzun səyləri nəticəsində yaxın zamanlarda Azərbaycan bayrağını Kəlbəcərdə, Şuşada, Xankəndidə dalğalandıracağıq. Siz öz adınızı Azərbaycan tarixinə qızıl hərflərlə yazdırırsınız. Sizə və ordumuza sonsuz təşəkkür bildirir, əldə olunan və olunacaq uğurlara görə Sizi təbrik edirəm".

Bakı şəhər sakini Toğrul Ağayev: "Hörmətli və əziz Prezidentimiz, Azərbaycan Ordusunun əkshücum əməliyyatı məni çox fərəhləndirdi. Çoxlu ərazilərimiz işğalçı erməni ordusundan azad edildi. Artıq qorxaq ermənilər qaçır. Acizliyindən şəhər və rayonlarımızı atəşə tutur. İnanıram ki, ən tez bir zamanda Qarabağımıza geri qayıdacağıq. Qarabağ Azərbaycandır!".

Ağdaş rayon sakini Əhəd Cəbiyev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, qəhrəmanlıq salnaməsi yazan şanlı Azərbaycan Ordusunun zəfər xəbərlərini bizə çatdırdığınız üçün Sizə Ağdaş gənci olaraq sevincimi və minnətdarlığımı bildirirəm. Arzum budur ki, işğal olunmuş hər bir qarış torpağımız tez bir zamanda düşmən tapdağından azad olunsun. İnanıram ki, bu günlər heç də uzaqda deyil. Qarabağ Azərbaycandır! Allah Sizi və Azərbaycan xalqını qorusun".

Cəbrayıl sakini Sahib Səfərov: "Hörmətli cənab Ali Baş Komandan, müzəffər ordumuzun Sizin rəhbərliyinizlə qısa müddət ərzində 30 ilə yaxındır Ermənistan ordusu və havadarları tərəfindən işğal altında saxlanılan tarixi torpaqlarımızı azad etməsini bütün xalqımız kimi biz də böyük sevinc və qürur hissi ilə izləyirik. 2012-ci ildə oğlum Ramil Səfərovu Macarıstandan Azərbaycana gətirərək əfv edəndə, bəzi ölkələr və beynəlxalq təşkilatların qərəzli mövqe nümayiş etdirmələrinə baxmayaraq, Siz bütün dünyaya sübut etdiniz ki, dövlət öz zabitinə, öz vətəndaşına harada olmağından asılı olmayaraq sahib çıxır və qoruyur. Bu gün isə Siz bütün dünyaya sübut edirsiniz ki, Azərbaycan dövləti, xalqı və ordusu beynəlxalq səviyyədə tanınmış öz tarixi torpaqlarını nəyin bahasına olursa olsun işğaldan azad etməyə qadirdir. 27 il sonra doğma Cəbrayılımızın erməni qəsbkarlarından xilas edilməsi münasibətilə Sizə, şanlı ordumuza, Səfərovlar ailəsi və xalqımızın adından dərin minnətdarlığımı bildirir, qəhrəman şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Biz Sizinləyik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Mingəçevir şəhərindən Cəfər Məmməd: "Hörmətli cənab Prezident, erməni təcavüzkarlarının torpaqlarımıza qəfil basqını bizi də həddən artıq qəzəbləndirdi. Terrorçular torpağımıza soxularaq və dinc əhaliyə zərər yetirərək yenə də ərazilərimizi ələ keçirmək üçün hər cür zorakılığa əl atırlar. İnanırıq ki, bu təcavüzkarların qarşısını almaq və onları sona qədər qovmaq əmrinizi şanlı ordumuz tezliklə yerinə yetirəcək və onların layiqli cavabını verəcəkdir. Düşmən nə qədər hiyləgər və güclü olsa da, məğlub olacaqdır. Cənab Ali Baş Komandan, inanırıq ki, keçmişdə əlimizdən çıxan, düşmən tapdağına çevrilən torpaqlarımıza Sizin qətiyyətli siyasətiniz nəticəsində qayıdacağıq, Vətənimiz bütövlənəcək. Eşq olsun şanlı Ordumuza! Yaşasın igid və mərd oğullarımız! Vətən uğrunda canın fəda edən, həlak olan şəhid qardaşlarımıza Allahdan rəhmət diləyirəm".

Bakı şəhər sakini Rasim Məmmədov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, müqəddəs Qarabağ torpaqlarının şanlı Azərbaycan Ordusu tərəfindən Sizin rəhbərliyiniz altında azad edilməsi xalqımızın öz rəhbərinə olan inam və etimadını yeni əlçatmaz yüksəkliklərə ucaltdı. İnşallah, müqəddəs Şuşa şəhərini də azad edəcəyik. Xalqımızın Sizə olan inamı, etibarı və sevgisi buna ən böyük təminatdır. Cənab Prezident, İctimai Nəzarət Koalisiyasının üzvləri Sizin istər cəbhədə, istərsə də respublikamızın ictimai-siyasi və iqtisadi həyatında olan bütün göstərişlərinizə canla-başla əməl edir və edəcəklər".

Ağdam sakini Qasım Zeynalov: "Hörmətli Prezidentimiz, cənab Ali Baş Komandanımız, mən Ağdam rayon sakini və Mexaniki Suvarma İdarəsinin traktorçusu kimi Sizi və qüdrətli Ordumuzu mənfur erməni işğalçıları üzərində qazandığınız Qələbəyə görə ürəkdən təbrik edirəm. Allah Sizi və Ordumuzu qorusun. Biz öz Ordumuz və mərd oğullarımızla fəxr edirik. Sizin verdiyiniz qərarlar, atdığınız addımlar bizi ruhlandırır, həyatda yaşamaq eşqi yaradır. Biz ağdamlılar cəbhə bölgəsində yaşamağımıza baxmayaraq hər zaman olduğu kimi, bu gün də öz işimizlə məşğuluq. İşlədiyim meliorator kollektivi ərazidə qızğın döyüşlərin getdiyi bir vaxtda öz işlərinə daha məsuliyyətli yanaşaraq rayon əhalisinin içməli və suvarma suyuna olan tələbatını layiqincə yerinə yetirir. Hörmətli cənab Prezident, biz ağdamlı melioratorlar Sizin uğurlu, uzaqgörən daxili və xarici siyasətinizi ürəkdən bəyənir, Ulu Tanrıdan Sizə cansağlığı arzulayır, apardığınız bütün işlərdə uğurlar diləyirik. Allah Sizi qorusun, cənab Prezident".

# Erməni fasizmi İş başında:





## Xocalı 1992 - Gəncə 2020!






















## Hikmət Hacıyev: “Ermənistanın Gəncəni ağır artilleriyadan atəşə tutmasını vandallıq və barbarlıq kimi qiymətləndiririk”



“Skad” raketi ortamənzilli ballistik raketdir və nüvə başlıqlarını da daşıya bilmək iqtidarındadır. Ümumiyyətlə, son dövrlərdə dünyadakı hərbi əməliyyatlara baxsaq görərik ki, 500 mindən artıq sakini olan şəhərə qarşı ballistik və böyük dağıdıcı gücə malik raketin atılması çox nadir hallardan biridir. AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Gəncədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

“Belə böyük dağıdıcı gücə malik raketi atan Ermənistanın siyasi-hərbi rəhbərliyi bunun necə təsir doğuracağını çox gözəl bilir. Bunu niyyətli şəkildə etmək onların əsl mahiyyətini göstərir. Gördüyünüz kimi, bu ərazidə hər hansı bir hərbi obyekt, hər hansı bir hərbi zərurət də yoxdur. Bu onu göstərir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi üçün hər hansı mənəvi, etik qaydalar, dünya sivilizasiyasına xas olan baryerlər yoxdur. Biz bunu vandallıq və barbarlıq kimi qiymətləndiririk”, - deyə Azərbaycan Prezidentinin köməkçisi əlavə edib.

## YAP 57 siyasi partiya və bir sıra beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

Yeni Azərbaycan Partiyası oktyabr ayının 11-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni raketlərdən atəşə tutması nəticəsində dinc sakinlərin həyatını itirməsi, coxlu sayda insanın yaralanması ilə nəticələnən hərbi təxribat ilə əlaqədar dünya ictimaiyyətinə, əməkdaşlıq etdiyi siyasi partiya bloklarına və siyasi partiyalara müraciət ünvanlayıb. Partiyadan SİA-ya verilən məlumata görə, erməni terrorçularının dinc insanlara qarşı törətdiyi növbəti vəhşilik və onun ağır fəsadları haqqında məlumatların yer aldığı müraciətdə bildirilir: “Ermənistan silahlı qüvvələrinin 11.10.2020-ci il tarixdə gecə saat 02 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını “Toçka-U” raket sistemindən atəşə tutması nəticəsində 4-ü qadın olmaqla 9 nəfər həlak olub, 16-sı qadın, 6-sı uşaq olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Həmçinin, Ermənistan silahlı qüvvələri 11.10.2020-ci il tarixdə gecə saat 04 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan Mingəçevir Su Elektrik Stansiyasını növbəti dəfə hədəfə almaqla cəbhə zonasından 100 kmdən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atıb.”

Yeni Azərbaycan Partiyasının müraciətində daha sonra qeyd olunur: “Ermənistanın bu barbarlığı Rusiya Xarici İşlər nazirinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada 11 saat davam edən gərgin danışıqlarının nəticəsində əldə olunan və 10.10.2020-ci il saat 12:00-da qüvvəyə minən humanitar atəşkəs rejiminin növbəti dəfə kobud şəkildə pozulmasıdır. Atəşkəsin ilkin dəqiqələrindən etibarən Ermənistan silahlı qüvvələri Azərbaycanın şəhər və kəndlərini, mülki obyektlərini, dinc əhalisini atəşə tutmaqda davam edir. Bununla da işğalçı Ermənistanın siyasi-hərbi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, insanlıq əleyhinə yeni cinayətlərə imza atmaqdadır.”

Yeni Azərbaycan Partiyası, erməni terrorunun insanlığa və bəşəriyyətə bir təhlükə olduğunu nəzərə çatdıraraq, dünya siyasilərini müraciətində daha sonra bildirib: “1990-cı illərin əvvəllərində birinci Qarabağ müharibəsində Dağlıq Qarabağın və ətraf rayonların azərbaycanlı əhalisinə qarşı etnik təmizləmə həyata keçirən, minlərlə uşağı və qadını qətlə yetirən Ermənistan dinc sakinlərə qarşı sistemli terror əməllərini bu gün də davam etdirir. 1994-cü ildə əldə olunan və bu ilin 27 sentyabrınadək davam edən atəşkəs rejimi müddətində də Ermənistan dəfələrlə Azərbaycanın mülki əhalisini hədəfə almış, onlarla uşağın ölümünə və yaralanmasına səbəb olan terror aktları həyata keçirmişdir. Sentyabrın 27-də Ermənistan tərəfindən növbəti hərbi təxribatın törədilməsindən etibarən isə bu ölkə tərəfindən Azərbaycanın dinc əhalisinə, əhalinin sıx məskunlaşdığı şəhərlərə və yaşayış məntəqələrinə hücumlar yeni mərhələyə yüksələrək daha geniş miqyas almışdır. Ermənistanın bu cinayətkar hücumları nəticəsində aralarında məktəblilər də olmaqla 41 mülki şəxs öldürülmüş, 200-dən artıq yaralanmış, mindən artıq ev və digər mülki obyektlər dağıdılmışdır.”

Yeni Azərbaycan Partiyasının müraciətində sonda qeyd olunur: “Daim tərəfləri atəşkəsə çağıran beynəlxalq ictimaiyyət Ermənistanın beynəlxalq hüquqa və humanitar atəşkəs prinsiplərinə zidd olan bu əməllərinə öz münasibətini bildirməlidir. Humanitar atəşkəs rejiminin qüvvəyə minməsindən cəmi bir neçə saat keçdikdən sonra Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrinin hədəfə alınması, eləcə də Azərbaycan silahlı qüvvələrinə olan son hücumlar Ermənistanın beynəlxalq ictimaiyyətə hörmətsizliyinin, eləcə də bu ölkə rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının göstəricisidir. Ona görə də Yeni Azərbaycan Partiyası olaraq beynəlxalq ictimaiyyəti, o cümlədən tərəfdaş siyasi partiyaları və beynəlxalq siyasi partiya təşkilatlarını Ermənistanın humanitar atəşkəsi pozan əməllərini və dinc əhaliyə qarşı hücumlarını qəti şəkildə pisləməyə çağırırıq.” Müraciət Avropa və Asiyanın 37 ölkədən 57 siyasi partiyalarına, eləcə də bir sıra beynəlxalq təşkilatlara ünvanlanmışdır..

## Əli Əhmədov: “Gəncədə qətlə yetirilən günahsız insanların qisası yerdə qalmamalıdır və qalmayacaq”



Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov Ermənistanın Gəncəni atəşə tutması ilə əlaqədar özünün rəsmi “Facebook” səhifəsində paylaşım edib.

YAP-dan AZƏRTAC-a bildirilib ki, paylaşımda deyilir: “Ermənistan ərazisindən atılan raketlə Gəncədə yaşayış binasının atəşə tutulması, çox sayda dinc sakinin qətlə yetirilməsi vandalizmin, vəhşiliyin son həddidir. Humanitar məqsədlə cəbhədə atəşkəsin tətbiq edilməsi barədə razılaşmanın qüvvəyə minməsindən sonra erməni rəhbərliyinin belə vəhşiliyi, növbəti dəfə dinc insanların, uşaq və qadınların qatili olması hər cür nifrətə və lənətə layiqdir. Qoy, dünya gözlərini açıb Azərbaycanın necə xəyanətkar, xain, insani hisslərdən uzaq düşmənlə üzüzə dayandığını görsün. Başa düşsün ki, bu cür xislətə malik olanları cəzasız qoymaq, törətdiyi cinayətlərinə görə layiqli cəzasını verməmək insanlığa qarşı xəyanətdir. Verdiyi vədlərə xəyanət etmək, uşaq qətlləri törətmək erməni tərəfin həyat tərzi, mənəviyyatının ayrılmaz hissəsidir. Gəncədə törədilən erməni vəhşiliyi bunun bariz nümunəsidir. Vasitəçilər işğalçı Ermənistanın vandalizminə lazımi qiymət verməlidir. Gəncədə qətlə yetirilən günahsız insanların qisası yerdə qalmamalıdır və qalmayacaq”.

## Dünya mətbuatı Ermənistanın Gəncədə törətdiyi vəhşilikdən yazır

*Gəncənin raketlə vurulması xəbəri nüfuzlu "Arabnews" qəzetinin baş məqaləsi kimi dərc edilib*

***Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raketlə vurulması xəbəri Səudiyyə Ərəbistanının ingilis dilində nəşr olunan nüfuzlu “Arabnews” qəzetinin baş məqaləsi kimi dərc edilib.***

AZƏRTAC xəbər verir ki, Ermənistanın dinc sakinlərə qarşı vəhşiliyini əks etdirən fotoşəkillərin, Gəncə sakinləri ilə müsahibələrin və Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatının da yer aldığı məqadusunun Gəncə şəhərinə gecə saatlarında raket hücumundan bəhs olunub. Azərbaycanın rəsmi mənbələrinə istinadla qeyd edilib ki, humanitar atəşkəs barədə razılaşmanın əldə edilməsindən bir sutka keçməmiş Ermənistan ordusu mülki əhalinin yaşadığı şəhərlərə terror hücumları təşkil edib. Qeyd edilir ki, bu aktı törədəcək tərəfin hər kəsə bəlli olmasına baxmayaraq, Ermənistan tərəfi bunu inkar edir. Məqalədə Azərbaycan Xarici İşlər Nazirliyinin hadisə ilə əlaqədar bəyanatına istinadla bildirilir: “Şəhər sakinlərinə atəşkəs









lədə Azərbaycanın beynəlxalq ictimaiyyəti işğalçı Ermənistanı beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün qətiyyətli addımlar atmağa çağırdığı qeyd olunub.

“Rəsmi Bakı bəyan edib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində dinc insanları, evləri, mülki obyektləri, tibb işçilərini məqsədli atəşə tutması ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir”, - deyə baş məqalədə vurğulanıb.

### Almaniyanın “WAZ” nəşri öz oxucularını Gəncə şəhərinin ermənilər tərəfindən barbarcasına atəşə tutulması barədə məlumatlandırıb

Almaniyanın daha bir nəşri - “WAZ” Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən gecənin bir aləmində barbarcasına atəşə tutulması barədə öz oxucularını məlumatlandırıb (bax: https://www.waz.de/politik/toedliche-gefechte-trotz-einigung-auf-waffenruhe-in-berg-karabach-id230642092.html).

Belə ki, materialda gəncəlilərin yuxuda ikən raket zərbələrinə məruz qalmaları barədə danışılır. Ölənlər və yaralananların sayı haqqında məlumat təqdim edildəndən sonra bir fakt da qeyd olunur ki, hücum tərəflərin atəşkəs barədə Moskvada əldə etdikləri razılaşmaya riayət olunması nəzərdə tutulan saatlarda törədilib.

### Yaponiya KİV-ləri Ermənistan ordusunun Azərbaycan şəhərlərinə raket hücumu barədə məlumatlar yayıb

Yaponiya kütləvi-informasiya vasitələri Ermənistan ordusunun Azərbaycan şəhərlərinə raket hücumları barədə məlumatlar yaymaqda davam edir. AZƏRTAC xəbər verir ki, Yaponiyanın NHK telekanalı, “The Japan Times”, “Asahi shimbun” qəzetləri, JIJI PRESS agentliyi, “Yahoo Japan”, “newsweekjapan” portalları bu barədə ətraflı məlumatlar yayıblar.

Böyük oxucu auditoriyasına malik olan “Asahi shimbun” qəzetinin yaydığı “Terror aktı nəticəsində 9 nəfər həlak olub” sərlövhəli məqalədə Ermənistan orbarədə razılaşmadan sonra baş verən hücum, Ermənistan rəhbərliyinin döyüşlərin dayandırılması barədə çağırışının yalan olduğunu təsdiq edir”.

### “Israel HaYom”: Dağlıq Qarabağda atəşkəs rejimi pozulub

Ermənistan və Azərbaycan tərəfləri arasında Moskvada əldə edilən sazişə baxmayaraq, Ermənistan atəşkəs rejimini pozaraq, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlər atıb, nəticədə yaşayış evləri dağılıb. AZƏRTAC xəbər verir ki, tanınmış israilli jurnalist Neta Barın İsrailin nüfuzlu ivritdilli “Israel HaYom” qəzetində dərc edilmiş “Dağlıq Qarabağda atəşkəs rejimi pozulub” sərlövhəli məqaləsi bu barədədir.

Məqalə müəllifi qeyd edir ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Aparatının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın terror siyasətini dövlət səviyyəsində davam etdirdiyini bildirib.

“Ermənistanın cəzasızlığı onu getdikcə daha çox müharibə cinayətləri törətməyə təhrik edir. Humanitar mülahizələrə əsasən müəyyən edilən atəşkəs rejimini pozmaqla Ermənistan Gəncənin əhalisinin sıx yaşadığı hissəsini nizamsız atəşə tutub. Ermənistanı dayandırmaq lazımdır. Ermənistan bir tərəfdən sülh xahiş edir, digər tərəfdən isə dinc sakinlərə qarşı alçaqcasına terror aktı törədir.

Ballistik raketlərlə Gəncəyə zərbəni biz terror aktı kimi dəyərləndiririk. Onlar döyüş meydanında öz uğursuzluqlarının əvəzini çıxmaq üçün belə şərəfsiz addımlar atırlar”, - deyə Azərbaycan Prezidentinin köməkçisi qeyd edir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən yenidən atəşə tutulması ilə əlaqədar, tərəflərin şənbə günü səhər Rusiyanın vasitəçiliyi ilə əldə etdikləri atəşkəs rejiminin pozulması təhlükəsi yaranır.

Jurnalist Neta Barın nüfuzlu ivritdilli “Israel HaYom” qəzetində dərc edilmiş məqaləsi bu sözlərlə bitir: “Azərbaycanın Dağlıq Qarabağ regionunda iki həftə bundan əvvəl başlanmış ikinci müharibə yüzlərlə erməni və azərbaycanlı əsgərlərin, həmçinin dinc sakinlərin həyatına son qoyub. Ermənilər Azərbaycanın iki iri şəhərinə ballistik raketlərdən zərbələr endirərək infrastruktura ziyan vurub, dinc sakinləri məhv edib və yaşayış evlərini dağıdıblar”.

# Məhərrəm Əliyev: "Heç bir vətəndaşımızın qanı yerdə qalmayacaq"

***"T**əcavüzkar Ermənistanın barbarlıq və faşizm ideologiyasından əl çəkməyərək, cəbhə xəttindən kilometrlərcə uzaqlıqda yerləşən, heç bir hərbi məqsədli obyektlərə aidiyyatı olmayan ərazilərimizi, şəhərlərimizi, dinc əhalimizi hədəfə alması bir daha sübut edir ki, düşmənin bu qədər aqressivləşməsi onun Qarabağ cəbhəsində aldığı ağır, sarsıdıcı məğlubiyyətləri ilə barışmamasıdır, həzm etməməsidir". Bu fikirləri SİA-ya Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev erməni silahı qüvvələrinin Gəncə şəhərinə raket zərbəsi endirməsini, nəticədə mülki vətəndaşlarımızın həyatını itirməsini və çox sayda qadın və uşaqların yaralanmasını şərh edərkən deyib.*



General-polkovnik bildirib ki, rəşadətli Silahlı Qüvvələrimizin zəfər yürüşü istər işğalçı Ermənistanı, istərsə də onların marionetı olan qondarma, saxta "dqr"i ciddi şəkildə təlaşlandırıb və nəticədə düşmən yenidən masa arxasına oturmaq çağırışları etdi: "Bildiyimiz kimi, Moskvada XİN rəhbərlərinin görüşü oldu və 11 saat davam edən görüşdə humanitar atəşkəs əldə edildi. Lakin biz nəyi müşahidə etdik? Hətta danışıqların getdiyi bir zamanda, eyni zamanda danışıqlar bitdikdən sonra düşmən sakit dayanmadı, əksinə daha da aqressiv və qanlı əməllərə rəvac olan addıma getdi. Bütün bunlardan sonra növbəti dəfə sübut olundu ki, humanizm ifadəsinin qarşı tərəfə ümumiyyətlə aidiyyəti yoxdur. Hesab edirəm ki, işğalçılar bütün bunlara görə mütləq cavab verəcəklər və məsuliyyət də birmənalı olaraq Ermənistan rəhbərliyinin üzərində düşür".

Beynəlxalq qurum və təşkilatların, insan haqları təşkilatlarının Gəncə şəhərinə endirilən raket zərbəsindən dərhal sonra nəyə görə heç bir bəyanat, şərh verməmələri sualını da cavablandıran Məhərrəm Əliyev bildirib ki, belə bir münasibətin nümayiş olunması hiddət doğurur və beynəlxalq aləmdə nüfuzu olan qurumlar bu vəhşiliyə, barbarlığa qarşı susqun davranmamalıdırlar: "Artıq dünyanın bir çox aparıcı media qurumları Gəncədə baş vermiş hadisəni işıqlandırıblar, dünya ictimaiyyəti hadisədənxəbərdardırlar. Düşünürəm ki, beynəlxalq təşkilatlar həmin hadisədən xəbərsizdirlər, sadəcə təəssüf ki, biz bir daha müxtəlif bənzər məqamlarda müəyyən ikili standartları müşahidə edirik və əslində belə qeyri-müəyyənliklər bizi narahat etmir. Ancaq buna baxmayaraq, dünya ictimaiyyətinin, çoxsaylı ictimai-siyasi dairələrin kəskin etirazlarını da gözləyirik. Çünki ortada insanlarımızın həyatını itirməsi, mülki vətəndaşlarımızın təhlükə altında olması faktı var və buna görə susqun qalmağın özü də işğalçı cinayətkarlara, qatillərə dolayısı ilə haqq qazandırmaq görüntüsünü yaradır. Halbuki haqq, ədalət Azərbaycanın tərəfindədir və bunu Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları dəfələrlə vurğulayıb. Düşmən layiq olduğu cavabını bundan sonra da alacaq, cinayətlərinə görə cəzalandırılacaq. Bu gün biz dövlət başçımızın tvitter hesabındakı qeydində də bu gerçəkliyi gördük. O, vurğulayıb ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdiyi cinayətinə görə məsuliyyət daşıyır və Azərbaycan tərəfi bütün bunlara layiqli cavab verəcək".

General-polkovnik bir sıra dairələrin Rusiya ilə Azərbaycan arasındakı münasibətləri pozmağa yönəlmiş fəaliyyəti məsələsinə də toxunaraq bildirib ki, Rusiyanın bir qrup KİV-ləri dezinformasiya və yalan xarakterli məlumatlar yaymaqla, xüsusilə iki ölkə arasında yanlış düşüncələrin yaradılmasına, bu vasitə ilə mövcud münasibətlərə xələl vurmağa cəhd edirlər: "İnanıram ki, sağlam düşüncəli insanlar bu cür "jurnalist"lərin, "bloger"lərin uydurduqları yalanlara inanmırlar və yaxşı bilirlər ki, feyk xəbərlər nəticəsiz qalır. Daha doğrusu, saxta informasiyalar həqiqəti, reallığı üstələyə bilmir. Bu baxımdan, ölkələrimiz arasındakı münasibətləri pozmağa çalışanlar istədikləri nəticələri vermir. Elə Gəncədə baş vermiş düşmən təxribatından sonra dünyanın ən aparıcı media qurumlarının hadisəni doğru istiqamətdə işıqlandırmaları da əvvəlcə yayılan feyk xəbərlərin üzərindən çalın-çarpaz xətlər çəkmiş oldu".

Xarici ölkələrdən Ermənistana humanitar yardım adı altında silah-sursatların göndərilməsi faktlarına da toxunan Məhərrəm Əliyev vurğulayıb ki, bu gün münaqişə tərəflərini atəşkəsə dəvət edən ölkələrin humanitar yardım adı altında məhz qəsbkarlara, işğalçılara silah göndərmələri faktları hiddət və təəssüf doğurur: "Məgər həmin ölkələr bilmirlərmi ki, qanunsuz yollarla, eləcə də bütün aviadaşıyıcılıq konvensiyalarını pozmaqla göndərdikləri müxtəlif cür silah-sursatlar dinc sakinlərimizə, mülki vətəndaşlarımıza, uşaqlarımıza, qadın və yaşlılarımıza qarşı tətbiq olunur? Yuxarıda da qeyd etdiyim kimi, bax bu cür amillər bizləri bir daha düşünməyə, nəticə çıxarmağa vadar edir".

"Ermənistanın hər zaman xarici ölkələrin əllərində maşa rolunu oynadığı sirr deyil", deyən Prezidentin hərbi məsələlər üzrə köməkçisi hesab edir ki, bundan ən çox əziyyət çəkən də məhz sadə erməni xalqı olur: "Bunun bilavasitə günahkarı Ermənistanın cinayətkar rejiminin baş naziri Nikol Paşinyandır. Onu nə xalqın, nə də ölkənin taleyi maraqlandırmır, onu maraqlandıran yeganə məsələ Sorosa xidmət etmək, onun əmrlərini yerinə yetirməkdir. Əbəs deyil ki, Paşinyan müxtəlif siyasi dairələrdə siyasi fiqur olaraq qiymətləndirilmir, əksinə o siyasi alət, oyuncaq olaraq istifadə olunur. Bunu dünyanın bütün siyasi cameəsi də bilir və dərk edir. Yəni fakt budur ki, Ermənistan illərdir ki, digər dövlətlər üçün oyun məkanına çevrilib. Bu gün Ermənistan xalqının ac, səfil və ölkənin bütün regional və beynəlxalq layihələrdən kənarda qalması da bunu isbatlayır. İndi də Azərbaycana qarşı qısqırdılan işğalçı ölkənin hərbi-siyasi hakimiyyəti, xunta rejimi növbəti dəfə erməni diasporunun dəstəyi sayəsində müxtəlif terror qruplaşmaları ilə anlaşmaya girir, regionda yeni terror küləyi əsdirməyə cəhdlər göstərirlər. Məhz bu kimi qanlı əməllər fonunda Paşinyan özünün primitiv rolunu oynamaqda davam edir. Əlbəttə ki, erməni baş nazir bunun da əziyyətini çəkir və çəkməkdə də davam edəcək".

Məhərrəm Əliyev bir daha vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələrinin erməni tərəfindən fərqli olaraq mülki əhali ilə heç bir işi yoxdur, Azərbaycan əsgəri onun torpağına göz dikən, işğal etmək istəyən düşmən əsgərini, onu idarə edən hərbi-siyasi rəhbərliyi hədəfə alıb: "Vaxt gələcək və torpaqlarımız tam işğaldan azad olunandan sonra erməni xalqının bu torpaqlarda yaşamaq imkanı tanınacaq, onlar da Azərbaycan vətəndaşı kimi bütün hüquqlardan istifadə edəcəklər. Azərbaycan insan hüquqlarını bütün konvensiyalar əsasında tanıyan tolerant, sülhpərvər ölkədir. Lakin, təəssüf ki, bu gün Ermənistanda əsrlərdən bəri formalaşmış anti-Türk, anti-Azərbaycan baxışı kök salıb. Bizə qarşı qəsbkarlıq, kirli məqsədlər üçün yaradılan bu fobiya sanki düşmənin qanına qədər işləyib. Amma buna baxmayaraq, biz hər zaman sülhün tərəfdarı olaraq çıxış edirik. Bu sülhə qarşı çıxan təcavüzkar və işğalçılara isə hər zaman cavab vermişik, bundan sonra da verəcəyik".

"Düşmən onlara verilən son şansdan istifadə edə bilmədi", deyən Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Azərbaycan Ordusunun bundan sonra hansı tədbirlər görəcəyi ilə bağlı sualı da cavablandırıb. Vurğulayıb ki, Silahlı Qüvvələrimiz öz mövqelərində mətinlə, qəhrəmanlıqla dayanıblar və yağı düşmənin istənilən xain hücumlarına ağır zərbələrlə cavab verir: "Biz unutmamalıyıq ki, cənab Ali Baş Komandanımız xalqa müraciətlərində dəfələrlə və qətiyyətlə hər kəsi əmin edib ki, şanlı bayrağımız işğaldan azad olunacaq bütün ərazilərimizdə dalğalanacaq, bir qarış torpağımız belə işğal altında qalmayacaq və bu proses uğurla davam edir. Kimsənin şübhəsi olmasın ki, işğalçı qüvvələrə qarşı başlatdığımız əks-hücum və anti-terror əməliyyatlarımız dayanıb, əksinə, bu əməliyyatlar tam ardıcıllığı ilə davam etdirilməkdədir. Müdafiə Nazirliyinin xalqa və geniş ictimai kütləyə təqdim etdiyi xüsusi video materiallardan da hər şey açıq-aydın qaydada izah olunmaqdadır. Biz davam etdirilən haqlı, ədalətli mübarizəmizdə yalnız qələbəmizə hesablanmış addımlarımızı atırıq, bundan sonra da atacağıq. Düşmənin xain zərbəsi nəticəsində həyatlarını itirmiş mülki və hərbiçi vətəndaşlarımızın ailələrinə Allahdan rəhmət diləyir, yaralananlara isə şəfa arzu edirəm. Bildirmək istəyirəm ki, onların heç birinin qanı yerdə qalmayacaq. Bir qədər təmkinli olaq, səbr nümayiş etdirək və Azərbaycan xalqının sevincinə səbəb olacaq qələbə xəbərlərini gözləyək".

***Rövşən RƏSULOV***

## Vaqif Dərgahlı: Ermənistanın "vurduğu" Azərbaycan PUA-sı "kukuruznik" çıxdı



**B**u gün erməni tərəfi növbəti dəfə Azərbaycan Ordusunun pilotsuz uçuş aparatını (PUA) vurduğunu elan etdi və həqiqi təsdiq etmək üçün guya həmin PUA-nın video kadrlarını yaydı. SİA-nın məlumatına görə, Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib ki, bu videonun yavaşıdılmış kadrlarına ötəri baxış etməklə havadan düşən və parlaq alovla yanan "PUA-nın" An-2 yüngül çoxməqsədli təyyarə olduğunu dəqiq görmək olar.

Sual olunur, Azərbaycan Ordusunun sərəncamında ən müasir silah növləri və ən yeni hərbi texnika olduğu halda kənd təsərrüfatı üçün nəzərdə tutulmuş "kukuruznik" ordumuzun nəyinə gərəkdir?

Cavab sadədir. Bu üsulla erməni təşviqatı qrafika və animasiyadan istifadə etməklə erməni ictimaiyyətini aldatmaq, eləcə də erməni əsgərinin fiziki cəhətdən qırılmış əhval-ruhiyyəsini və mənəvi durumunu yüksəltmək üçün uğursuz cəhdlər göstərir. Bir sözlə, bütün PUA-larımız sağ-salamat və döyüş sırasındadır.

## Vüqar Rəhimzadə: "Terror aktı Paşinyan rejiminin sülhə, atəşkəsə adekvat olmadığını isbatladı"



**"O**ktyabrın 10-dan 11-nə keçən gecə Ermənistanın Gəncədə çoxmənzilli binanı raket atəşinə tutması və nəticədə 9 dinc insanın həlak olması, 34 nəfərin yaralanması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin sübutu oldu. Ermənistanın bu hücumları, mülki əhalinin hədəfə alınması birmənalı müharibə cinayətidir və beynəlxalq hüququn kobud şəkildə pozulması deməkdir. Eyni zamanda, Ermənistan ordusunun gecə saat 2 radələrində öz evində yatmış vəziyyətdə olan mülki əhaliyə qarşı xaincəsinə terror aktı törətməsi Paşinyan rejiminin faşist xislətini, sülhə, atəşkəsə adekvat olmadığını isbatlayır". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, bu gün regionda beynəlxalq sülhə başlıca təhlükə olan Ermənistan artıq nəinki Cənubi Qafqaz regionu, ümumilikdə beynəlxalq aləm üçün qlobal bir problemə çevrilib: "Sentyabrın 27-dən başlanan müharibə ilə əlaqədar bütün beynəlxalq təşkilatlar, dövlətlər tərəfləri hərbi əməliyyatları dayandırmağa, sülh danışıqlarına başlamağa səsləyirdilər. Sonuncu dəfə isə Rusiya humanitar atəşkəsin təmin edilməsi ilə əlaqədar təşəbbüs irəli sürdü və bu məqsədə nail olmaq üçün Moskva görüşü təşkil olundu. Həmin görüşün nə qədər gərgin keçməsi hər kəsə bəllidir. Nəticədə humanitar atəşkəsin elan edilməsi qərara alındı. Lakin Azərbaycanın atəşkəs rejiminə sadiq olduğu bir zamanda Ermənistanın siyasi rəhbərliyi bir daha riyakarlığını ortaya qoydu. Paşinyan rejimi aydın şəkildə beynəlxalq qanunlara hörmətsizlik etdi və bütün dünyaya meydan oxudu. Moskvada üzərinə götürdüyü öhdəliklərə əməl etmədi, razılaşmaya sadiq olmadı və ikiüzlülüyünü isbatladı. Düşünürəm ki, atəşkəs haqqında razılaşmanın təşəbbüskarı və təminatçısı kimi Rusiya təcili surətdə Ermənistanın hərbi-siyasi rəhbərliyindən, şəxsən Nikol Paşinyandan Gəncədə törətdiyi qanlı terror aktının hesabını sormalıdır".

Vüqar Rəhimzadə əlavə edib ki, Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılığından sonra dinc insanları və yaşayış məntəqələrini atəşə tutması bu dövlətin faşist xislətinin bir daha sübutu və Ermənistanın hərbi-siyasi rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığının növbəti bariz göstəricisidir: "Bu səbəbdən də bütün beynəlxalq təşkilatlar, xüsusilə də münaqişənin sülh yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Ermənistana qarşı nəhayət təzyiq mexanizmini işə salmalı, mülki əhaliyə qarşı terror aktlarına son verməsini ciddi şəkildə ondan tələb etməlidir. Əgər bu dəfə də Ermənistanın əməlləri susqunluqla qarşılanacaqsa, təcavüzkara qarşı əməli tədbirlər görülməyəcəksə, nəticədə Paşinyan rejimi daha da azğınlaşacaq və bundan da böyük terror aktlarına, hətta soyqırımına əl ata bilər. Yekunda isəümumilikdə regionda sülhün və təhlükəsizliyin təmin olunması müşkülə çevriləcək".

# “Ermənistanı sərt şəkildə qınamalı, cəzalandırılmasını tələb etməli, sanksiyalar qəbul olunmalıdır”

## YAP Siyasi Şurasının üzvü, BDU-nun kafedra müdiri, tarix elmləri doktoru, professor, əməkdar müəllim İradə Hüseynovanın SİA-ya müsahibəsi



*-İradə xanım, işğalçı Ermənistanın cəbhə xəttindən kilometrlərlə uzaq, heç bir hərbi məqsədli olmayan Gəncə, Mingəçevir və s. kimi şəhərlərimizi hədəfə almaları, uşaqlarımızı, qadın və yaşlılarımızı qətlə yetirmələri faktını necə şərh edərdiniz?*

- İlk növbədə deyim ki, erməni qəsbkarlarının, məhz humanitar atəşkəs rejiminin tətbiq edilməsinə baxmayaraq, Gəncə şəhərində yaşayış binasını raket atəşinə tutaraq, onlarla dinc sakini qətlə yetirməsi, yaralaması, birmənalı olaraq, xalqımıza qarşı törədilən terror aktıdır, genosiddir. Hətta deyərdim ki, Gəncədə azərbaycanlılara qarşı törətdiyi qətliam Xocalı, Bağanıs Ayrım və s.ərazilərimizdə yaşadılmış soyqırımının davamıdır. Fürsətdən istifadə edərək, həyatlarını itirmiş həmvətənlərimizə Allahdan rəhmət diləyir, yaralılarımıza isə şəfa arzulayıram.

Bu gün düşmən cəbhədə ağır, sarsıdıcı məğlubiyyətlərə məruz qalmaqdadır və belə bir anda onların daha da aqressivləşərək mülki əhalimizi, dinc şəhərlərimizi hədəfə almaları hiddət və nifrət hissimizi artırır. Yağı düşmən elə sanmasın ki, xalqımız bu cür silahı təhdidlərdən, xain hücumlardan qorxacaq. Əksinə, biz daha da əzmkarlıq nümayiş etdirməklə Ermənistanın, saxta, qondarma “dqr” rejiminin mənfur niyyətlərinin qarşısını alacağıq. Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında sıx birləşib və mövcud hərbi vəziyyətdə, müharibə vəziyyətində istər cəbhədə, istərsə də arxa cəbhədə erməni işğalçılarına qarşı mübarizəyə tükənməz ruh yüksəkliyi ilə dəstəyini göstərir.

Digər tərəfdən, qeyd etmək istərdim ki, artıq beynəlxalq təşkilatlar da susqun qalmamalı, humanitar məqsədli atəşkəsdən sui-istifadə edən Ermənistanı sərt şəkildə qınamalı, cəzalandırılmasını tələb etməli, sanksiyalar qəbul olunmalıdır. Çünki Gəncədəki son olayı bütün dünya mediası yaydı və faktlar da ortadadır.

*- Sizcə düşmən uduzduğunun fərqinə varması ilə yanaşı, xarici ölkələrdən humanitar yardım məqsədi adı altında silah-sursat daşımaqla növbəti qətliamlar törətməyə cəhd göstərə bilərmi?*

- Düşmən nəinki uduzur, döyüş meydanında hər şeylərini atıb qaçır. Biz gündəlik olaraq Müdafiə Nazirliyinin rəsmi məlumatlarını oxuyur, təqdim etdiyi videoşərhləri izləyirik. Bildiyimiz kimi, şanlı Ordumuz, rəşadətli əsgərlərimiz onlara aman vermir. İşğalçı əsgərlər bizim torpağımıza soxulduqlarına görə hər an oradaca məhv edilirlər. Biz müharibəni öz torpaqlarımız uğrunda aparır, sivil erməniyə güllə atmırıq. Onlar isə bizim müharibədən kənar olan böyük şəhərlərimizi raket atəşinə tuturlar.

Lakin bildiyimiz kimi, bu gün Ermənistanın sadə vətəndaşları müharibə istəmirlər. Onlar Nikol Paşinyan hakimiyyətinin övladlarını aid olmadıqları torpaqlarda öldürülməsini heç də arzulamırlar. Yaxşı bilirlər ki, başqasının torpağında övladlarını nə gözləyir. Baxın, bir neçə gün əvvəl sosial şəbəkələrdə Paşinyanın polislərinin paytaxt İrəvanda və digər şəhərlərdə hətta hərbi xidmət yaşları çatmayan 17 yaşlı gəncləri belə zorla maşınlara mindirilərək Qarabağa göndərilmələrinin videogörüntüləri yayıldı. Onları küçədəcə, valideynlərinin əllərindən zorla qoparılaraq oğurlandıqlarını gördük. Belə vəziyyətdə cəbhəyə göndərilən əsgər əlbəttə ki, döyüşmək arzusunda deyil. Əksinə, onlar sonda öz silahlarını qondarma “dqr” rəhbərliyinə, həm də Nikol Paşinyana tərəf döndərəcəklər, bu vasitə ilə intiqamlarını öz hakimiyyətlərindən alacaqlar. Çünki sadə erməniyə müharibə lazım deyil. Düşünürəm ki, işğalçıların bu cür siyasəti bütünlüklə Ermənistanın xəritədən silinməsi təhlükəsi ilə qarşı-qarşıya qoyacaq.

*-İradə xanım, Prezident İlham Əliyev cənabları xalqa müraciətlər etdi və sonuncu müraciətində də qarşı tərəfə sonuncu şans verdiyini də vurğuladı. Necə düşünürsünüz, düşmən bu şansını itirməklə nə əldə etmiş oldu?*

- Əminliklə deyə bilərəm ki, düşmənin xaincəsinə davranışları, bundan sonra da etmək istədiyi hücumları nə xalqımızı, nə də dövlətimizi haqq işi uğrunda mübarizədən-müharibədən çəkindirə bilməz. Bəli, humanitar atəşkəsin imzalanması onlara verilən sonuncu şans idi. Ancaq bayaq da dediyimiz kimi, düşmən bu şansdan yararlana bilmədi və əslində, özünü daha ağır vəziyyətə saldı. Paşinyana və havadarlarına özlərinə məxsus olan xain xislətləri imkan vermədi ki, biz tərəfdən edilən sonuncu yaxşılığı normal dəyərləndirə bilsinlər. Ermənilər bu vasitə ilə bütün beynəlxalq öhdəliklərə, qurum və təşkilatlara qarşı hörmətsizlik göstərdi. Bu hörmətsizliyin isə cavabını mütləq alırlar və almaqda davam edəcəklər. İşğalçılara qarşı başladığımız Vətən Müharibəsi Ali Baş Komandanın rəhbərliyi, ordumuzun gücü, xalqımızın əzmi ilə qələbə ilə sonuclanacaq. Biz buna əminik. Əminik ki, Azərbaycan bayrağı Şuşada, Xankəndində və bütün işğal olunmuş ərazilərimizdə məğrurcasına dalğalanacaq. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təbirincə desək, Qarabağ Azərbaycandır! Azərbaycan həmişə qalib olacaq!

*- Müsahibənizə görə sağ olun...*

- Mən də minnətdaram və fəaliyyətinizə uğurlar, qələbə müjdələri verməyi arzu edirəm.

**Rəfiqə HÜSEYNOVA**

# Məşhur Məmmədov: “Ermənistan öz riyakarlığını növbəti dəfə göstərdi”

***“Son vaxtlar Ermənistan hökuməti tərəfindən həyata keçirilən təxribatçı fəaliyyət bir daha sübut edir ki, işğalçı ölkənin rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlaması üçün danışıqlar prosesindən çox uzaqdırlar. Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdi”. Bu fikirləri “Səs” qəzetinə açıqlamasında Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü Məşhur Məmmədov bildirib.***



M.Məmmədov onu da bildirib ki, Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılaşmasından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarçılığın növbəti bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığını göstərir: “11 oktyabr gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli kənarda yerləşən Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb. Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi növbəti hərbi təcavüzü nəticəsində içərisində uşaq, qadın və ahıl insanların da yaşadığı çoxmənzilli binalarda 9 nəfər həlak olub. Eləcə də 34 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib, hələ də dağıntılar altında qalan insanlar var. Dövlət başçımız Gəncədə baş verən hadisələrlə bağlı bildirib ki, bu Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir”.

“Azərbaycan Prezidenti İlham Əliyev “TRT Haber” telekanalına müsahibəsində bildirib: “Gəncəyə hücum Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir. Yəni, bu, Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Yəni mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir. Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır” Dövlət başçımız, həmçinin deyib ki, işğalçı Ermənistan dövləti xüsusi raket sistemlərindən istifadə etməklə ölkənin beynəlxalq hüququn fundamental normalarına, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə Konvensiyalarına məhəl qoymadığını, öz öhdəliklərini aşkarcasına pozduğunu və adi humanizm prinsiplərindən çox uzaq olduğunu növbəti dəfə nümayiş etdirir. Bütün bunlara baxmayaraq, dövlət başçımız bildirib: “Azərbaycan əsgəri, zabiti, generalı şücaət, rəşadət, cəsarət göstərir, canı, qanı bahasına ərazi bütövlüyümüzü təmin edir. İnşallah sona qədər irəliyə gedəcəyik”.

Millət vəkili onu da vurğulayıb ki, baş verən növbəti Gəncə hadisəsi bir daha erməni faşizminin sifətini nümayiş etdirir: “Dövlət başçımız dəfələrlə çıxışlarında vurğulayıb ki, bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir: “Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı “Vətən sağ olsun” deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun”. Bu fikirləri dövlət başçımız haqq yolundan, Vətən yolunda canından keçərək yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib və qeyd edib ki, biz haqq yolunda, öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq: “Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar”.

M.Məmmədov onu da vurğulayıb ki, Azərbaycan haqq yolunda apardığı mübarizədə qalib gələcək və tarixi ədaləti bərpa edəcək: “Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının dediyi kimi, “Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Prezident İlham Əliyev bir daha əminliklə söylədi ki, Azərbaycan xalqı belə şücaətli, igid oğullarımızla qürur duyur və tezliklə bu zəfər Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

**RƏFİQƏ HÜSEYNOVA**

# Qazaxıstan mətbuatı Ermənistan ordusunun humanitar atəşkəsi kobud şəkildə pozmasından yazır

Qazaxıstanın kütləvi informasiya vasitələrində Ermənistan ordusunun Azərbaycan şəhərlərinə raket hücumları barədə məlumatlar dərc edilib. AZƏRTAC xəbər verir ki, ölkənin ”newsroom.kz” ”zakon.kz” ”ainews.kz”, ”qamshy.kz” ”adyrna.kz” , ”abai.kz”, ”regtv.kz”, ”qazaqtimes.kz”, ”kursiv.kz”, ”mail.kz”, ”ea-news.kz” xəbər portallarında yayılan informasiyalarda Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzindəki yaşayış binasını gecə saatlarında raket hücumuna məruz qoyduğu bildirilir.


"Армения продолжает гр...
https://www.altyn-orda.kz/armeniya...
гражданских объектов и медицинского персонала в очередной раз демонстрирует, что эта страна игнорирует основополагающие нормы международного права, включая международное гуманитарное право и Женевские конвенции, явно нарушает свои обязательства и очень далека от основных принципов гуманизма.

Решительно осуждаем эти акты агрессии со стороны Армении и призываем международное сообщество предпринять решительные шаги с целью принуждения страны-оккупанта Армении к соблюдению международного права и международных обязательств.

Вся ответственност[illegible]ситуацию в регион лежит на военно-политическом


Әзербайжан Арменияны...
https://qamshy.kz/article/60517-az...

Әзербайжан Арменияның қайтадан шабуыл бастағанын хабарлады

Гүлім Жарасқызы
Ұсынған

594 0

Фото: Әзербайжанның Қазақстандағы елшілігі

Qeyd olunur ki, humanitar atəşkəs haqqında razılaşmanın əldə edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılaşmanı kobudcasına pozmaqda davam edir.

Məqalələrdə atəşkəs rejimi qüvvəyə mindikdən dərhal sonra Azərbaycanın Ağdam və Tərtər rayonlarının artilleriya atəşinə tutulduğu diqqətə çatdırılıb. Bildirilib ki, bir neçə saat sonra Ermənistan silahlı qüvvələri Hadrut və Cəbrayıl istiqamətində hücuma cəhd göstəriblər.

Həmçinin vurğulanıb ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin əmri ilə Gəncənin raket atəşinə tutulması ilə əlaqədar cinayət işi başlanıb.

# Paşinyanın Gürcüstana qarşı açıq təxribatı: ermənilər gürcüləri təhqir edir!

## Armenianreport: "Gürcüstan özünü Ermənistana və "artsaxa" qarşı açıq şəkildə xəyanətkarcasına və alçaqcasına aparır...Gürcülərin naturası budur, onlar böyük hesabla qorxaq və alçaq xalqdırlar"

***Bugünlərdə Ermənistanın baş nazir Nikol Paşinyan sosial şəbəkədə bilavasitə Gürcüstanın ərazi bütövlüyünə hörmətsizlik etməklə açıq-aşkar təxribat əməli törədib. SİA xəbər verir ki, həmin məsələ ermənilərin armenianreport saytında da etiraf olunub, amma ermənilərə xas olan sırf həyasızlıq nümunəsi ilə.***

Sözügedən məsələni bir az da dəqiqləşdirmək üçün dəyərli oxucularımızın diqqətinə çatdırmaq istərdik ki, düşmənin işğalçılıq və dövlət terroru siyasətinə dəstək məqsədi ilə Gürcüstanın Axalkalaki bölgəsində məskunlaşan ermənilər növbəti mitinq keçiriblər. Bu həmin ermənilərdir ki, bir müddət əvvəl Gürcüstandan Ermənistana qanunsuz yolla keçməklə, Qarabağ cəbhəsində Azərbaycana qarşı döyüşmək tələbini irəli sürürdülər. Lakin gürcü sərhədçiləri onları sərhəddən buraxmayaraq, bunun qanunsuz olduğunu qarşı tərəfin nəzərinə çatdırmışdılar. Buna da qane olmayan və özlərini "cavax" erməniləri adlandıran separatçılar dərhal hay-həşir salmaqla etiraz aksiyaları keçirərək, Gürcüstana qarşı sözün əsl mənasında ağ olmuşdular. Bu öz yerində...




İndi həmin Nikol Paşinyan ermənilərin mitinqlərinin şəkillərini sosial şəbəkədə paylaşmaqla yanaşı, ermənilərin yaşadıqları və rəsmi toponimi Axalkalaki olan ərazini qeyri-rəsmi, yəni separatçılıq məqsədi daşıyan "Cavaxetiya" kimi göstərib. Üstəlik, həmin adı mitinq şəklinin üzərinə yazıb!

Siyasi fahişəlik nümunəsi: "Nikol Paşinyan Cavax fotosuna başqa necə qeyd etməliydi? O San-Fransisko, Maresl, ya da Kasnodar vilayəti yazmalıydı?"

Əlbəttə ki, belə bir həyasızlıq gürcülərin diqqətindən yayınmayıb və seqmentləri Nikol Paşinyanı bu kimi yanlış addım atmağına görə ittiham ediblər. Nəticədə gürcü tərəfinin haqlı narazılığı da ermənilərin ağızlarını bağlamayıb və onlar kifayət qədər mənsub olduqları həyasızlıqlarını daha izafi şəkildə sərgiləyiblər.

Məsələn, ermənilər özlərinə məxsus olan xəyanətkarlıq və satqınçılıq xislətini bir kənara qoyub, gürcüləri bunda günahlandırıblar. Təkcə armenianreport-un bu frazasına diqqət yetirək. SİTAT: "Gürcüstanda hiddətə gəlmək üçün formal bəhanə tapıblar. Halbuki bu ölkənin ənənəvi olaraq sakit və rəhbərliyi daxil olmadan. Hansı ki, qonşu olmasına rəğmən, özünü Ermənistana və "Artsaxa" (Qarabağa-R.R.) qarşı açıq şəkildə xəyanətkarcasına və alçaqcasına aparır. Gürcülər Ermənistanın baş naziri Nikol Paşinyanın özünün rəsmi Facebook səhifəsində paylaşdığı şəkildən hiddədləniblər. Söhbət şəkildə "Cavax" ifadəsindən gedir. Və nədir? Problem nədədir? Baş nazir sosial şəbəkədə foto paylaşıb. O, buna görə gürcülərdən icazə almalı idi? Nikol Paşinyan Cavax fotosuna başqa necə qeyd etməliydi? O San-Fransisko, Maresl, ya da Kasnodar vilayəti yazmalıydı? Deyəsən qonşuların başı tamamən gedib..."

Daha bir həyazıslıq: "Axı onlar bilirlər ki, Cavax tarixən kimə məxsus olub. Onlar bilirlər ki, tarixlər boyu orada ermənilər yaşayıb və yaşayır. Onlar hətta onu da bilirlər ki, Gürcüstanın digər əraziləri paytaxt Tbilisi də daxil olmaqla tarixi erməni şəhərləridirlər"

Bax, məsələ də budur! Budur aşkar erməni həyasızlığı və budur erməni xislətində formalaşmış dəhşətli təkəbbürçülük! Hələ bu harasıdır? Gəlin-görün ermənilər Paşinyanın təxribatçı şəkil paylaşımından sonra daha necə artıqgəlmişlik edir, üstəlik, Axalkalakinin adını necə "Cavaxetiya" olduğunu iddia edirlər, hətta zorla gürcülərin boyunlarına qoyurlar!

SİTAT: "Axı onlar bilirlər ki, Cavax tarixən kimə məxsus olub. Onlar bilirlər ki, tarixlər boyu orada ermənilər yaşayıb və yaşayır. Onlar hətta onu da bilirlər ki, Gürcüstanın digər əraziləri paytaxt Tbilisi də daxil olmaqla tarixi erməni şəhərləridirlər. Ancaq onlar hiddət görüntüsü yaymağa davam edirlər..."

Beləliklə, gürcüləri hədəfə alan armenianreport həyasızcasına iddialarını davam etdirir və gürcü xalqını təhqirə məruz qoyur. SİTAT: "Gürcülərin naturası budur, onlar böyük hesabla qorxaq və açlaq xalqdırlar. Sübut etməyə çalışırlar ki, ruslara Cənubi Osetiya müharibəsini qəhrəmancasına uduzublar. Ancaq reallıq budur ki, hər şey gürcü ordusunun zəifliyində və qorxaqlığındadır..."

Erməni müəllif ABŞ, Fransa, Rusiya siyasətçilətinə də təsir göstərməklə Cavaxetiyaya dəstək ala biləcəklərini yazır...

Armenianreport bu məsələdə Azərbaycana qarşı da dil uzatmağı unutmayıb və şərəfsizcəsinə, alçaqcasına iddia edib ki, demə erməni döyüşçüsündə "tükənməz ruh" varıymış və guya onlar istənilən orduya qarşı "qalib" olurlarmış-filan...

Erməni müəllif Gürcüstanın pandemiyaya görə turizmdən yararlana bilməməsini siyasi fahişə çığılığı ilə bölüşür, üstəlik iddia edir ki, ermənilər Gürcüstanın üzləşdiyi iqtisadi çətinlikdən yararlanaraq bu ölkəyə təzyiq (???!!!) də edə bilərlər.

Nəticədə armenianreportun siyasi fahişəliyə imza atan müəllifi erməniləri Gürcüstanı ziyarət etməməyə, gürcü mallarını almamağa çağırır, belə bir addımı hər bir erməninin erməniçilik üçün şəxsi dəstəyi kimi adlandırır. Üstəlik, bu yolla Axalkalaki ermənilərinin "Cavaxetiya"nın azadlıq əldə edəcəyini də iddia edir. Sonda gürcü tərəfinə "siyasi güc" nümayiş etdirməyi tövsiyə edən erməni müəllif ABŞ, Fransa, Rusiya siyasətçilətinə də təsir göstərməklə Cavaxetiyaya dəstək ala biləcəklərini yazır...

Bax, belə... Dünya isə həyasızlıq, fahişəlik, riyakarlıq nümayiş etdirən erməni xislətinə susmaqda davam edir və nəinki susur, üstəlik, ermənilərə humanitar yardımlar vasitəsi ilə silah da satır...

***Rövşən RƏSULOV***

***P.S. Məqalənin armenianreport saytındakı versiyasını rus dilində aşağıdakı linkdən oxuya bilərsiniz: https://armenianreport.com/ru/pubs/260988/***



# Kor dünya və ya tfu sizin üzünüzə...

**Elçin Bayramlı**

## Bağışlayacaqsınız, amma insanlığa qarşı erməni terroruna qarşı gözü kor, qulağı kar, dil lal olan "dünya birliyi" üçün bundan münasib ifadə tapmaq mümkün deyil

Azərbaycan və Ermənistan arasında Qarabağ ərazisində davam edən döyüşlər təkcə hərbi müstəvidə deyil, həm də mülki müstəvidə vüsət alır. Belə ki, Qarabağdakı işağlçı Ermənistan ordusuna və erməni terrorçu qruplaşmalarına sarsıdıcı zərbələr endirən Azərbaycan Ordusu qısa müddətdə düşmənin az qala bütün hərbi arsenalını və xeyli əsgərini məvh edib, bir sıra ərazilərimizi azad edib.

Cəbhədə Azərbaycan Ordusu ilə bacarmayan Ermənistan isə döyüş bölgəsindən xeyli uzaqda yerləşən Azərbaycan şəhərlərinə raket zərbələri endirərək aralarında körpə uşaqların da olduğu onlarla dinc sakinin ölümünə, yüzlərlə insanın ağır yaralanmasına səbəb olub. Bu, konkret və açıq terror aktıdır. Başqa sözlə dövlət səviyyəsində mülki əhaliyə qarşı törədilən hərbi cinayətdir. Özü də açıq-aşkar rəsmi bəyan edilmiş formada və bütün dünyanın gözü qarşısında. Lakin dünya birliyi dediyimiz beynəlxaql təşkilatların, böyük dövlətlərin gözü kor olub- insanlığa qarşı törətdilmiş belə dəhşətli cinayətləri görmür, qulağı kar olub- yaralanan körpələrin ağlamasını eşitmir, dili lal olub - bu dəhşətə "dur" deyə bilmir.

Maraqlıdır ki, bütün tarix boyu bu dünya birliyi, beynəlxalq ictimaiyyət həmişə bəşəri cinayətləri, terror aktlarını pisləyir, bunu edənlərə qarşı sanklsiyalar, təzyiqlər hətta hərbi müdaxilə həyata keçirirlər. Lakin məsələ ermənilərin törətdiyi faciələrə və terro aktlarına gəldikdə dünyanın gözü kor, qulağı kar, dili lal olur. Azərbaycanın haqq səsini səsgücləndiricilər vasitəsilə bağırsan da "eşitmir".

Çox uzatmayaraq, tarixdəki yüzlərlə erməni terrorundan bir neçəsini qeyd etsək, bu etinasızlığın tarixinin o qədər də az olmadığını görəcəyik.

1918-ci ildə erməni daşnak terrorist dəstələri ingilislərin dəstəyi ilə Azərbaycanda yerli əhaliyə qarşı vəhşicəsinə soyqırım törətdilər, müxtəlif bölgələrdə, hətta Azərbaycan paytaxtı Bakıda yüz minlərlə yerli dinc sakinini məhv etdilər. Lakin dünya bunu "görmədi", "eşitmədi", ona görə də dili söz tutub danışa da bilmədi...

Sovet İttifaqı qurulduqdan sonra ermənilər kütləvi terror aktları və soyqırımlar təşkil edə bilmədilər. Yalnız gizli şəkildə azərbaycanlıları aradan götürmək və vəzifədən çıxarılmalarını təmin etmək istiqamətində işlədilər. Terror işini isə başqa ölkələrdə davam etdirdilər. Ermənilər Qərb ölkələrində ASALA kimi terror təşkilatları təsis edərək müxtəlif ölkələrdə Türkiyə diplomatlarına qarşı uzunsürən qanlı terror aktları törətdilər, lakin dünya birliyi yenə də kor oldu, kar oldu, lal oldu...

Zaman dolanıb gəldi 80-ci illərin sonuna. Qərb dövlətlərinin fəal dəstəyi ilə gücləndirilən Amerikadakı və Avropadakı erməni lobbisinin təşkilatçılığı ilə SSRİ-ni etnik münaqişə zəminində daxildən dağıtma planı ermənilərin işinə yaradı. 87-ci ildən etibarən Ermənistanda, Azərbaycanın Qarabağ regionunda deportasiya, soyqırım, terror və işğal prosesinə start verdilər.

Amerika, Fransa, Rusiya kimi fövqəldövlətlərdən də dəstək alaraq terroru davam etdirdilər-1 milyon azərbaycanlı öz doğma yurdlarından qovuldu, 30 minədək azərbaycanlı öldürüldü, 50 min nəfər əlil oldu, yüzlərlə kənd və şəhər dağıdıldı, Azərbaycan ərazisinin 20 faizi işğal edildi. Lakin tərəqqipərvər dünya ictimaiyyəti, qlobal təşkilatlar yenə də kor oldu, kar oldu, lal oldu...

Proses son 30 ildə də davam etdi. Bu günlərdə isə ermənilər tarixdə görünməmiş vəhşiliklərə əl atdılar. Cəbhə bölgəsindən yüz km-lərlə aralıda yerləşən şəhərlərə, din sakinlərin başına bomba, raket yağdıraraq, dövlət terroru həyata keçirdilər və kütləvi qırğın törətdilər. Uşaqlar, qadınlar, qocalar öldü... lakin bu sülhsevər beynəlxalq təşkilatlar yenə də kar, kor, lal oldu...

Başqa vaxt sülhdən, insan hüququndan danışan beynəlxalq təşkilatlar (BMT, Avropa Şurası, Avropa İttifaqı və s.) indi səslərini çıxara bilmirlər. Dünyadakı facilələrə sərt reaksiya göstərən Amerika, Avropa, Rusiya məsələ ermənilərin törətdiyi terrora gələndə siçan deşiyi axtarırlar gizlənməyə.

Demək indiyədək danışılan beynəlxalq hüquq, İnsan hüquqları bəyannaməsi, müxtəlif konvensiyalar və sair sənədlər hamısı adi kağız parçasından ibarət imiş. Ortada heç bir dünya birliyi zad yox imiş. Dünya başqa meyarların üzərində bərqərar imiş.

Qısa Ermənistan bütün beynəlxaql hüquqa, BMT TŞ-nin qətnamələrinə və digər dünya qanunlarına tüpürərək istədiyini edir və cavabı olmayan sualdır ki, heç kim də onlara bir söz deyə bilmir. Hətta, bir-birinin amansız düşməni olar dövlətlər söhbət erməni məsələsinə gəldikdə dost kimi eyni mövqedən çıxış edirlər. Ermənilər isə dünyanın üzünə tüpürməkdə davam edirlər.

Ona görə də, mən də buradan bütün beynəlxaq təşkilatlara, beynəlxalq sənədlərə, qətnamələrə, beynəlxalq məhkəmələrə rahatca tüpürə bilərəm. Bunlar insanlığın düşməni, hətta qlobal terror şəbəkəsidir ki, ermənilər də bu terrorçu şəbəkənin üzvüdürlər. Çünki yuxarıda dedikilərimin başqa heç bir izahı, əsası yoxdur, ola da bilməz.

Ona görə də, buradan üzümü beynəlxalq təşkiatlara, riyakar fövqəldövlətlərə tutaraq şəxsən öz adımdan rəsmi olaraq bəyan edirəm-

Tfu sizin üzünüzə!

# Azərbaycan: Multikultural və tolerant ölkənin tarixi həqiqətləri

*Hələ 12 əsr əvvəl Azərbaycanda dünyanın ilk multikultural, tolerant, sülh və qardaşlıq şəraitində formalaşan cəmiyyət və dövlət yaradılmışdı*




Dünya tarixində ilk nümunəvi cəmiyyət və sosial dövlət formalarından biri də Azərbaycanda yaranıb. 12 əsr əvvəl milli-mənəvi dəyərlərə və bəşəri ideallara söykənən bir sistemin formalaşması xalqımızın dünyaya ta qədimdən nümunəvi dövlət və cəmiyyət forması bəxş etdiyinin aydın göstəricisidir. Bu yazımızda qədim Azərbaycan tarixində ən şərəfli dövrlərdən olan Hürrəmilər Hərəkatı (VIII-IX əsrlər) və hərəkatın nəticəsi olaraq Babəkin başçılığı (816-838) vaxtı yaradılan Hürrəmi dövlətindən, bu dövlətin hansı baza üzərində formalaşmasından danışacağıq.

### Azərbaycan 8-ci əsrdə: cəmiyyət və din münasibətləri

VII əsrdə semit mənşəli xalqların sosial-mənəvi səviyyəsinə uyğun olan yeni dinin yaranması yarımvəhşi ərəb qəbilələrinin islam ideologiyası ətrafında Ərəb Xilafətində birləşməsinə gətirib çıxardı. Ərəb-islam dövləti VII əsrin ortalarına yaxın hərbi cəhətdən xeyli güclənmiş və bütün ətraf ölkələri öz hakimiyyəti altına almaq üçün istilaçı və talançı yürüşlərə başlamışdı.

Xüsusilə də, əsas hədəf bir zamanlar səhraya qovulmuş vəhşi qəbilələrin minillik arzusu olan şimal-şərq və şimal-qərb istiqamətində yerləşən məhsuldar və zəngin təbiətli torpaqlar idi. Bu torpaqlarda müxtəlif xalqlar sülh şəraitində mehriban yaşayırdılar.

Azərbaycan xalqının ta qədimdən sülhsevər və humanist olduğunu, hətta ərəb tarixçiləri də etiraf ediblər. İbn ən-Nədim yazır: "Hürrəmilərin dini etiqadında qətl, əzab və savaş yox idi, onlar bütün bunların nə olduğunu bilmirdilər".

Azərbaycanın əksər ərazilərini qılınc gücünə işğal edən, on minlərlə yerli sakini amansızlıqla qətlə yetirən ərəblər yerli xalqın milli-mənəvi dəyərlərinə, mədəniyyətinə və yaşayış tərzinə kobud müdaxilə edir, öz dillərini, mədəniyyətlərini, milli adətlərini və dini ideologiyalarını zorla qəbul etdirmək üçün bütün vasitələrdən istifadə edirdilər.

Azərbaycan xalqına məxsus qədim məbədlər dağıdılır və ya xristianlara (məs. ermənilərə) peşkəş olunurdu. Bundan əlavə, bütün dini-fəlsəfi, elmi kitablar "Quranda yoxdursa küfrdür" iddiası ilə yandırılır, qiymətli incəsənət əsərləri Xilafət paytaxtına daşınır, alimlər əsir aparılır, ruhani ustadlar öldürülür, milli sərvətlər (həmçinin əhalinin malmülkü) qarət olunur, islamı qəbul etməyən əhali üzərinə ağır vergilər qoyulurdu.

Görkəmli tarixçi akademik Ziya Bünyadov "Azərbaycan VII-IX əsrlərdə" adlı əsərində dövrün tarixçilərinə istinadən yazır: "...Ərəblər yerli əhalini sürətlə müsəlmanlaşdırmaq üçün islamı, ərəb dili və digər adət-ənənələrini qəbul etməyənlərin üzərinə olduqca ağır vergilər qoyurdular. Bu vergidən can qurtarmaq üçün əksər adamlar üzdə özlərini bu şərtləri qəbul edən kimi göstərir, hətta özlərinə ərəb adları götürməyə məcbur olurdular".

Orta əsr mənbələrdə qeyd olunur ki, ərəblər işğal etdikləri ərazilərdə öz dinlərini "qeyri-kitab əhli" (?) və ya "kafir" (?) adlandırdıqları yerli əhaliyə qılınc gücünə qəbul etdirməyə çalışır, ən qədim təktanrılı dinin (zərdüştlüyün) ən qədim müqəddəs kitabın- (Avestanın) mənəvi sahibi olan xalqımıza qarşı insanlığa sığmayan hər cür vasitə ilə zor işlədirdilər.

Halbuki, "Zərdüştün müvəhhid və təkallahlı olmasını Əli ibn Əbu Talib (Məhəmməd peyğəmbərin mənəvi varisi və islamın ilk imamlarından biri), ondan sonra Hüzeyfə, Səid ibn-Müsəyib və başqaları qəbul etmişlər" (İsmayıl Şəms, "Avesta").

Beləliklə, məlum olur ki islam dinini əldə bayraq edən vəhşi səhra ərəbləri heç bir mədəniyyət yüksəkliyinə, heç bir təktanrıçılıq dininə əhəmiyyət vermədən yalnız öz ideologiyalarını yeritmək, maddi sərvətlər əldə etmək, münbit torpaqları işğal etmək üçün yüz minlərlə insanımızı öldürmüş, ölkəmizi xaraba qoymuşlar.

"Böyük mütəfəkkir Mirzə Fətəli Axundov bu prosesi belə ifadə edib: "Ərəblər bizim minillik səltənətimizi yıxdılar, şan və şövkətimizi bərbad etdilər, vətənimizi elə xarabadan da xarab etdilər ki, bu günə qədər abad etmək mümkün olmayıbdır" (Əsərləri II cild. Bakı 1961, səh 137)

### Hürrəmilər hərəkatının təşəkkülü və ideoloji bazası

Ərəb işğalından çox minillər qabaq Azərbaycan bəşər tarixində ilk təktanrılı dinin mərkəzi sayılırdı. Bu torpaqlarda dünyanın ən qədim məbədləri tikilmiş, tarixin ən qədim müqəddəs kitabı- Avesta dünyaya buradan yayılmış, ilk peyğəmbər Zərdüşt burada yaşamışlar.

Lakin tarixin sonrakı dövrlərində məlum proseslər və xüsusilə də Makedoniyalı İsgəndərin yürüşü zamanı bu dinə qarşı total təcavüz həyata keçirilmiş, maqların böyük əksəriyyəti öldürülmüş, Avestanın əldə olan bir nüxsəsi yandırılmış, digər nüxsəsi isə İsgəndər tərəfindən Yunanıstana aparılmışdı.

Sonralar antik mütəfəkkirlərin və müasir böyük alimlərin də etiraf etdiyi kimi, Avestanın yunan-Roma mədəniyyətinə böyük təsiri olmuş, hətta bu mədəniyyətlərin onun güclü təsiri altında formalaşmasına səbəb olmuşdu.

Hürrəmi ideologiyası zərdüştlük, həmçinin bu dinin zəifləməsindən sonra onun bazasında yaranan maniçilik və məzdəkizmin ehkamları üzərində qurularaq qədim mədəniyyətimizi və milli-mənəvi dəyərlərimizi yaşatmağa çalışırdı.

Zərdüştlükdə Hörmüzün, Vaişnavizmdə Krişnanın, Xristianlıqda İsanın, İslamda Sahib-əz-zaman Mehdinin... yer üzünə enərək ədalıti bərpa edəcəyinə güclü inam var. Hürrəmilər də Tanrının nə vaxtsa "Ağ atlı oğlan" kimi yerdə təcəssüm edib, bütün yer üzünün insanlarını zülümdən xilas edəcəyinə, bütün insanların bərabər şərtlərdə yaşadığı ədalətli cəmiyyət qurulacağına inanırdılar. Onlar "Uca Şirvinin ruhu, səni gözləyirik!" dedikdə, məhz bu inama söykənirdilər.

Babək və hürrəmilər haqda uydurulan nağıllarda mümkün qədər onun və ailəsinin əxlaqsız, pozgun olduğunu xalqın beyninə yeritmək istəyiblər. Lakin mənəvi-əxlaqi dəyərlərə böyük əhəmiyyət verən xalq- milyonlarla insan mənəviyyatsız ailədən çıxmış birinin ətrafında birləşməzdi, ümumiyyətlə onu rəhbər, mənəvi ustad kimi qəbul etməzdilər. Özü də burada bir xalqdan yox müxtəlif xalqlardan söhbət gedir. Bu xalqlar etnik mənsubiyyətə heç bir əhəmiyyət verməden vahid ideologiya ətrafında birləşmişdilər. Eynilə indiki kimi. Azərbycançılıq ideologyasının müxtəlif xalqları, konfessiyaları bir arada birləşdirdiyi kimi.

Hürrəmilərin başçı seçdikləri şəxs öncə ustadın yanında elmi-dini təlimlərə, başçılıq qabiliyyətinə yiyələnmiş olmalı idi. Çünki həmin şəxs həm ruhani ustad, həm də dünyəvi idarəetmədə başçı olmalı idi.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliğı" istiqaməti çərçivəsində hazırlanıb.*

### Dünya tarixində analoqu olmayan dövlət sistemi

Bir əsrdən artıq davam edən azadlıq hərəkatının son 22 ilində Babək zəruri atributlara malik qüdrətli dövlət yaratmışdı. Bu dövlətin silahlı qüvvələrə başçılıq edən hərbi komandanlığı, Ali şurası, dövlət xəzinəsi, bayrağı, gerbi, ölkənin əyalətlərində mərkəzə bağlı idarəçilik strukturu, ehtiyat silah və azuqə bazaları və s. atributları olub.

Babək sadə insanları dövlətin vilayət və şəhərlərinə hakim təyin edir, başqa dövlətlərlə müqavilələr bağlayır və səfir göndərirdi. Azərbaycan paytaxtında- Babəkin Bəzz şəhərindəki sarayında isə, Rum İmperatorluğunun səfiri yaşayırdı.

Etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün xalqın bərabər şəkildə yaşadığı, sosial ədalətə söykənən dövlət sistemini ərəblər anlamadığından "hürrəmilərdə arvadlar da ümumidir" deyə böhtan yazırdılar. (Tam da XX əsrin 20-ci illərində Sovet hakimiyyəti qurularkən "arvadları kolxoz edəcəklər, kişinin arvadına ixtiyarı çatmayacaq, çünki Şura hökumətində qadınlar da ümumidir" kimi xəstə düşüncələr kimi).

Bu iftira ilə bağlı görkəmli tarixçi, akademik Ziya Bünyadov yazır: "İyirmi ildən artıq xilafətə qarşı kəskin və cəsur azadlıq mübarizəsi aparmış bir xalqı şən və qayğısız ömür sürən başıpozuq bir kütlə kimi qələmə vermək mümkün deyil".

Hürrəmilər ordusunda müxtəlif xalqların nümayəndələri vətənin ümumi düşməninə qarşı çiyin-çiyinə döyüşürdülər. Hətta Ərəb xilafətinə qarşı döyüşlən ərəb əsgərlər də var idi.

Ümumiyyətlə, inkaredilməz faktdır ki, Hürrəmilər dövləti dünya tarixində bəşəri və milli dəyərlərə söykənən ən nümunəvi və şərəfli bir dövlət, cəmiyyət formasıdır.

### Dövlətçilik atributlarımız və ənənələrimiz: keçmişdən bu günə

Babək sevgisi 12 əsrdir bütün azərbaycanlıların qəlbində yaşayır. Hər il Babək Hürrəminin ad günündə on minlərlə azərbaycanlı Bəzz qala şəhərini ziyarət edir, böyük şəxsiyyətimizin əziz xatirəsini yad edirlər. Onun ideyaları xalqın mənəviyyatında özünə əbədi və möhkəm yer tutdu. Babək Hürrəminin qaldırdığı qırmızı bayraq yaddaşlarda yaşadı.

Bu bayrağı qəhrəman Azərbaycan oğulları tarix boyu daha bir neçə dəfə dövlət bayrağı kimi dalğalandırdılar. Bu bayraq Səfəvi İmperiyası dövründə bir daha ucaldıldı, 1908-ci ildə Cənubi Azərbaycan inqilabından sonra yaranan Azərbaycan dövlətinin bayrağı kimi qəbul olundu. Maraqlı məsələlərdən biri odur ki, AXC-in ilk bayrağı Babəkin, Hürrəmi dövlətinin bayrağı idi- qırmızı fonda ortada aypara və səkkizguşəli ulduz.

Azərbaycan Sovet Sosialist Respublikasının da ilk bayrağı belə idi- qırmızı rəngdə, yuxarı sol güncdə aypara və ulduz. ASSR-in sonrakı bayrağı da buna oxşar idi, yalnız ayparanı zəhmətin, bərəkətin rəmzi olan oraq-çəkic əvəz etmişdi.

Beləliklə, Azərbaycan tarixindəki nümunəvi dövlət və cəmiyyət sistemindən, vahid ideologiyaya malik quruluşlardan biri haqda qısa söhbət açdıq. Növbəti yazılarda başqa tarixi dövlətlərimizdə mövcud olan dəyərlər sistemi haqda danışacağıq.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

13 oktyabr

# Braziliyalı futbolçu: “Erməni terroruna son, Qarabağ Azərbaycandır!”



“Kəpəz” və “Neftçi”nin sabiq futbolçuisu Dario Frederiko Dağlıq Qarabağda baş verən hadisələrə münasibət bildirib. Belə ki, braziliyalı futbolçu “İnstaqram” səhifəsində Azərbaycan Ordusuna dəstək nümayiş etdirib. O, “Erməni terroruna son, Qarabağ Azərbaycandır! Tanrı Azərbaycanı qorusun. Mən sizinləyəm” - deyə paylaşım edib.

# “Messi “qalıram” deyəndən sonra ondan gözlədiyim hər şeyi etdi”



***“Komandada, həyat yoldaşınızla, övladlarınızla vaxt keçirdiyiniz biri klubdan ayrılanda belə reaksiya verməyiniz normal olur”. Qol.az xəbər verir ki, bu sözləri “Barselona”nın baş məşqçisi Ronald Kuman İspaniya mətbuatına açıqlamasında deyib. 57 yaşlı mütəxəssis Lionel Messinin Luis Suaresin “Barselona”dan göndərilməyinə verdiyi reaksiyadan danışarkən kapitanı yaxşı başa düşdüyünü bildirib: “Mən Messiyə də bunu dedim: Məyus olduğunu və Suaresin gedişini eyib hesab etdiyini başa düşürəm. Amma bu, klubun seçimidir.***

“Barselona” ilə müqavilə imzaladıqdan dərhal sonra Leo ilə əlaqə saxladım. Evinə gedib, onunla gələcəyi barədə danışdım. O, narazılığını açıq şəkildə dilə gətirdi. Sonra hər şey düzəldi. Messi “komandada qalıram” dediyi andan bəri ondan gözlədiyim hər şeyi etdi”.

# Hazardın qiyməti 90 milyon avro aşağı düşdü

Belçika millisinin üzvü Eden Hazardin qiyməti “Çelsi”dən “Real”da keçdikdən sonra xeyli aşağı düşüb. Qol.az “Transfermarkt”a istinadən xəbər verir ki, 29 yaşlı yarımmüdafiəçinin qiyməti 2019-cu ilin yayında 150 milyon avro idi. Ancaq onun hazırkı qiyməti cəmi 60 milyon avrodur. Bu isə o deməkdir ki, Hazard “Real”a keçdikdən sonra qiyməti 90 milyon avro aşağı düşüb. Qeyd edək ki, Eden ötən ilin yayında 100 milyon avroya “Çelsi”dən “Real”a transfer olunub. O, indiyə kimi üç dəfə zədələnib.



# Sarımsaq koronavirusun müalicəsində effektlidir?

***Sarımsaq çoxları tərəfindən demək olar ki, əksər xəstəliklərin dərmanı hesab olunur. Bu bitki antibakterial və antiviral xüsusiyyətlərə malikdir, immnuniteti stimullaşdırır. Ancaq rusiyalı qastroenteroloq Nikita Xarlov sarımsağı çiy halda yeməməyi məsləhət görüb.***

Ekspert bu barədə “Sputnik” radiosunun efirində qonaq olarkən danışıb. “Çiy sarımsaq yalnız bakteriya və göbələkləri öldürmür, həzm sisteminin selikli qişasını qıcıqlandırır”, - mütəxəssis izah edib.

Sarımsağın koronavirusun müalicəsində təsirindən söz açan Xarlov vurğulayıb ki, qıcıqlanmış bağırsaq sindromlu insanlarda sarımsaq ciddi əks reaksiyaya səbəb ola bilər. Bundan başqa, sarımsağı buruna sürtmək selikli qişanın qıcıqlanması nəticəsində qoruyucu baryerin azalmasına və ödemin meydana gəlməsinə yol aça bilər.

Həkim sarımsağı istənilən formada yeməklərdə ədviyyat kimi istifadə etməyi məsləhət görüb: qurudulmuş, təzə, qaynadılmış və ya yeməklə bişmiş. Sonda həkim sarımsaqlı faydalı resept paylaşıb. Bunun üçün yarım litr südə bir neçə diş sarımsaq əlavə edib, iki-üç gün qaranlıq yerdə saxlayın. Nəticədə çıxan kefirdə laktik turşu bakteriyaları çoxalır, lakin parazit və göbələklər ölür.



# Banan və kartof yatmağa kömək edir?

Gün ərzində düzgün qidalanmamaq axşamlar yuxuya getməyə mənfi təsir göstərir. Araşdırmalar nəticəsində belə qənaətə gəlinib ki, qida rasionu yuxu rejiminə birbaşa təsir edir. Belə ki, yuxusuzluqla mübarizədə ən effektli qidalardan biri banandır. Yatmazdan qabaq banan yemək yuxuya getməni təmin edir. Melatonin və seratonin hormonları ilə yanaşı, bananın tərkibində olan maqnezium əzələlərə rahatlıq gətirir. Bananı yatmazdan bir-iki saat əvvəl yemək məsləhətdir.



Kartof yuxu üçün faydalı qidadır. Onun tərkibində olan maddələr mədəni yormur və turşuluq səviyyəsini aşağı salır. Yuxu dərmanını rahatlıqla əvəz edən digər təbii vasitə isə gilas şirəsidir. İki həftə ərzində səhər və axşam turş gilas şirəsi içmək yuxu sistemini qaydaya salır. Yuxu dərmanından fərqli olaraq gilas daha səmərəli və təhlükəsizdir. Tərkibindəki bir sıra vitamin və kalsium nəticəsində badam əzələlərin rahatlığına kömək edir. Axşamlar bir ovuc badam yemək şirin yuxu gətirir.



# “Arsenal” Özillə anlaşa bilmir



İngiltərənin “Arsenal” futbol klubunun futbolçusu Məsut Özil təkliklə azad agent statusu ala bilər. Premyer Liqa təmsilçisi Almaniya millisinin sabiq üzvü ilə vidalaşmağın yollarını axtarır. Müqavilənin qarşılıqlı razılıqla pozulması ilə bağlı tərəflər arasında danışıqlara start verilib. Ulduz futbolçu gələn ilin yayına qədər olan sözləşməsinin ləğvi üçün rəhbərlikdən 13 milyon funt-sterlinq təşkil edən birillik məvacibini tələb edir. Bu isə “topçular”ın ürəyincə deyil. Oyunçu ilə ortaq məxrəcə gəlinərsə, Özil mövsümün gedişində istənilən kluba azad agent kimi keçə bilər. Qeyd edək ki, Məsut Özil 2013-cü ildən “Arsenal”ın formasını geyinir.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet
bazar və bazar ertəsindən
başqa hər gün
nəşr olunur
Tiraj: 4600